RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 136 (8452) ÇƏRŞƏNBƏ, 15 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan əzici hərbi üstünlüyə malik olduğunu bir daha nümayiş etdirdi

## İlham ƏLİYEV: “Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır”

**Erməni silahlı qüvvələrinin Tovuz rayonu istiqamətindən Azərbaycan ərazilərinə soxulmaq cəhdi Ermənistanın işğalçı və təcavüzkar siyasət yürütməsinin növbəti təsdiqi oldu. Torpaqlarımızın keşiyində mətinliklə durmuş vətən övladları artilleriyadan da istifadə etməklə düşmənin hücumunun qarşısını qəhrəmancasına aldılar. Təxribatın dəf olunması və erməni hərbi birləşmələrinə sarsıdıcı zərbənin vurulması bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin istənilən hücumunun qarşısını anında almağa qadirdir.**

### Ermənistan bir daha göstərdi ki, danışıqlar prosesində maraqlı deyil

Ermənistan tərəfi xeyli vaxt idi ki, işğal olunmuş Azərbaycan ərazilərində sülh prosesinə kölgə salan hərbi-siyasi fəaliyyətlə məşğul idi. Ermənistan prezidentinin və baş nazirinin müxtəlif vaxtlarda işğal olunmuş ərazilərimizə gəlmələri, burada müxtəlif tədbirlərin, hərbi təlimlərin keçirilməsi beynəlxalq hüquq və danışıqlar prosesi ilə ziddiyyət təşkil edən əməllərdən başqa bir şey deyildi. Bir neçə gün əvvəl mətbuata açıqlamasında Prezident İlham Əliyev Ermənistanın təxribatçı əməllərinə beynəlxalq təşkilatlar tərəfindən reaksiya verilməməsinə toxunaraq demişdir: “Biz danışıqlar formatına da sadiqik, danışıqların mahiyyətini də əsas götürürük. Əlbəttə ki, o mahiyyətdə bizi heç də hər şey qane etmir. Ancaq biz demişik, bizi nə qane etmir və nə qane edir. Ermənistan nə edir? “Qarabağ Ermənistandır” deməklə tamamilə danışıqların mahiyyətini yerə vurur. “Formatı dəyişmək lazımdır” fikri danışıqları əhəmiyyətsiz edir. Yəni buna adekvat reaksiya verilməlidir, yoxsa yox?! Qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində seçilməmiş saxta prezident Şuşada andiçmə mərasimi keçirir. Buna adekvat cavab verilir, yoxsa yox?! Axı bu, açıq-aydın təxribatdır. İndiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir?”

Bəli, yaşadığımız regionda sülh və təhlükəsizlik prinsiplərinin pozulmasına, Ermənistanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərə əməl etməməsinə münasibət bildirməli olan təşkilatların susqunluğu, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində iştirak edən qurumların laqeydliyi fonunda işğalçı siyasətini daha da gücləndirmək yolunu tutan Ermənistanın əvvəllər olduğu kimi, cəbhə xəttində yenidən təxribatlar törədəcəyi əslində gözlənilən idi. Bu baxımdan baş verən son hadisə bir daha göstərdi ki, Ermənistan hakimiyyəti sülh danışıqlarının aparılmasında maraqlı deyil. Hakimiyyətə gəldikdən sonra hər vəchlə, müxtəlif bəhanələrlə danışıqlar prosesindən imtina etməyə çalışan N.Paşinyan bununla da işğalçı cildinə girən “demokrat” olduğunu göstərdi. Bunun nəticəsi olaraq danışıqlar prosesi faktiki olaraq iflic vəziyyətinə düşüb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün faktiki olaraq danışıqlar prosesi getmir, Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfranslarının da heç bir əhəmiyyəti yoxdur.

### Paşinyan sələflərini uğursuzluğa aparan yolu gedir

Digər tərəfdən bu gün Ermənistanda daxili siyasi-ictimai və sosial-iqtisadi vəziyyət olduqca mürəkkəbdir, əhalinin hakimiyyətə etimadının itməsi ilə əlaqədar dərin böhran yaşanılır. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahəsində heç bir irəliləyişin olmaması, insan hüquq və azadlıqlarının boğulması, avtoritar idarəçiliyin formalaşdırılması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi Ermənistan hakimiyyətini çox mürəkkəb duruma salıb.

Bu baxımdan Ermənistan hərbi bölmələrinin sərhəddə törətdiyi növbəti təxribat Paşinyan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini daxili məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür.

Ardı 5-ci səh.



# Unudulmayan tarix

## Ulu Öndər 1969-cu ildən başlayaraq Azərbaycanda inkişaf və tərəqqi dövrünün əsasını qoydu

“Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir... Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda biz ən sonuncu yerlərdə idik. O, Azərbaycanı böyük inkişafa doğru apararaq ən qabaqcıl yerlərə qədər ucaltdı”.

**İlham ƏLİYEV**

Azərbaycan tarixində ən parlaq dövr, ən güclü inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin respublikaya siyasi hakimiyyətə gəldiyi gündən başlayır. Məhz həmin andan böyük rəhbərin titanik, məqsədyönlü fəaliyyəti nəticəsində ölkə misilsiz inkişafa doğru yüksəlmiş, özünün əsl tərəqqi, intibah dövrünü yaşamışdır. Ulu Öndər ölkəyə rəhbərlik etdiyi illər ərzində milli inkişaf yolunu dərin elmi əsaslarla müəyyənləşdirmiş, daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən mürəkkəb məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmiş, böyük fədakarlıqlar göstərmiş, fitri keyfiyyətləri sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan görə bilmişdir. Yalnız bir yolla - bütöv və tam həqiqətin yolu ilə gedən və ağlasığmaz uğurlar qazanan dahi şəxsiyyətin dövlətçilik fəaliyyəti, əslində, tarixi faktların etirafıdır. Çünki reallıq və həqiqət böyüklük və qüvvət əlamətidir. Öz təbiəti etibarilə cəmiyyəti həmişə irəli aparan, qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olan, sabahkı gün, insanların xoş gələcəyi, gözəl arzular və xəyallar haqqında düşünən, onları reallığa çevirən bir şəxsiyyətin həyat amalı ancaq həqiqət konsepsiyasına bağlıdır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq həqiqətin meyarı isə dəyişməz qalır.

Ardı 4-cü səh.

# *Türkiyə Prezidenti:* “Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycana son hücumlarını kəskin şəkildə qınadığını söyləyib.

Dövlət başçısı bildirib ki, Vətənini müdafiə edərkən şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralananlara şəfa diləyirik. Dağlıq Qarabağın işğalından bəri bu bölgədə davam edən gərginliyin Ermənistanın sistemli hücumları nəticəsində müharibəyə çevrilməsindən narahatıq. Sonuncu hücumlar Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə ağır silahlardan istifadə olunmaqla həyata keçirilib. Heç şübhəsiz, bu hücum Ermənistanın əndazəni aşan hərəkətidir. Burada məqsədli bir təxribat var: həm Dağlıq Qarabağ probleminin həllinin qarşısını almaq, həm də yeni bir münaqişə mənbəyi yaratmaq. Türkiyə qədim dostluq bağları və qardaşlıq əlaqələrinin olduğu Azərbaycanın haqq və hüququnun müdafiəsi, torpaqlarına qarşı yönələn təcavüzün qarşısının alınmasında tərəddüd etməyəcək.



Öz ölkəsində sosial və epidemiya ilə bağlı problemləri həll edə bilməyən bir dövlətin belə hücumlar etməsi, ilk növbədə, xalqına qarşı hörmətsizlikdir. Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq və yanında olmaqda davam edəcəyik.

# Azərbaycan yüksək qrupa aid edilən 69 ölkə arasından 13-cü yerdə qərarlaşıb

Elektron Hökumət Sorğusunun (e-Government Survey) bu il üçün nəticələri açıqlanıb. Elektron Hökumət üzrə sorğu Birləşmiş Millətlər Təşkilatı tərəfindən iki ildən bir keçirilir və 193 üzv ölkəni əhatə edir.

Hazırlanmasında 200-dən çox tədqiqatçı, ekspert iştirak etmiş və sayca 11-ci olan bu nəşr dünya ölkələrinin e-hökumət hazırlığı ilə bağlı yeganə istinad mənbəyidir.

“Elektron Hökumətin İnkişafı İndeksi” üzrə dövlətlər adətən ən yüksək, yüksək, orta və aşağı qruplarda təsnifləşdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan yüksək qrupa aid edilən 69 ölkə arasından 13-cü yerdə (2018-ci ildə 70 ölkə arasında 30-cu yerdə olub), okeanlara çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında isə ilk üçlükdədir. Azərbaycan reytinqdə 2018-ci ilə nisbətən öz indeksini 66 baldan 71 bala qədər yüksəldərək, dünya üzrə orta göstəricini 11 bal üstələməyə nail olub. Qeyd edək ki, indeksi 0,75 olanda ölkə elektron hökumətin ən yüksək inkişaf səviyyəsinə çatmış sayılır, bu isə o deməkdir ki, Azərbaycan ən yüksək qrupa keçməyə real namizəddir.

Ardı 4-cü səh.




# Azərbaycanda koronavirusla mübarizə davam edir

## Qlobal böhrandan minimum itkilərlə çıxmaq üçün bütün qüvvələr səfərbər olunub

Dünya ölkələrinin qlobal pandemiya ilə mübarizəsi davam edir. Müxtəlif sanitar-epidemioloji, profilaktik, məhdudlaşdırıcı tədbirlərə rəğmən hələ də virusun yayılma sürətini azaltmaq, yoluxma hallarının qarşısını almaq mümkün deyil. Artıq bütün planetdə yeni növ koronavirusa yoluxanların sayı 13 milyon nəfəri keçib. COVID-19 virusunun qurbanlarının sayı isə 600 minə çatıb.

Ardı 11-ci səh.

# Ermənilər sosial şəbəkələrdə qan ağlayırlar:

## “Aprel döyüşləri təkrarlansa, Azərbaycan Yerevana kimi gələcək”

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində erməni silahlı qüvvələrinin törətdiyi növbəti hərbi təxribat nəticəsində işğalçı ölkənin ordusunda itkilərin sayının artması bu ölkədə böyük xof yaradıb. Ermənilər sosial şəbəkələrdə artıq vahiməyə düşdüklərini gizlətmir, bununla əlaqədar ölkə rəhbərliyini günahlandırırlar. Vurğulanır ki, işğalçı ölkə ciddi itkilər versə də, Ermənistan ordusunun rəsmiləri bu məlumatı gizlədirlər.

Sosial şəbəkələrin ermənidilli seqmentini Ermənistan tərəfinin ciddi itkilər verməsi ilə bağlı paylaşımların müzakirəsi zəbt edib. Etirazçılar, əsgər valideynləri hökumətdən itkilərin sayını düzgün açıqlamağı tələb ediblər. Beləliklə, Ermənistan informasiya maşınının yenidən yalan tirajlaması növbəti dəfə sosial şəbəkələrin gücü ilə tam iflasa uğrayıb.

### 70 əsgərin öldüyü, 300 yaralının olduğu bildirilir

Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bəzilərini oxucuların diqqətinə çatdırırıq. Qeyd edək ki, ermənilərin sosial şəbəkələrdə paylaşımları öz dillərində olmaqla yanaşı, həm də rus dilindədir və biz bunlardan istifadə etmişik.

Ardı 5-ci səh.




# Bu kənd bizim kəndimizdir!

Erməni vandalları növbəti təxribata əl atdılar. İşğalçılıq siyasəti yeritdiklərini bir daha sübut etdilər, nə qədər rəzil olduqlarını bir daha təsdiqlədilər. İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozdular, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular, hücuma keçməyə cəhd göstərdilər.

Əlbəttə ki, adekvat tədbirlər nəticəsində düşmənə lazımi cavab verildi. Hazırda vəziyyət gərgin olaraq qalır. Yəni mənfur qonşu öz mənfurluğundan əl çəkmək istəmir.

Ardı 5-ci səh.

# Milli Məclisin Sədri bir sıra beynəlxalq və regional təşkilatların rəhbərlərinə müraciətlər ünvanlayıb



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Türkdilli Ölkələrin Parlament Assambleyasının, Parlamentlərarası İttifaqının, MDB PA Şurasının, AŞ PA-nın, ATƏT PA-nın, İslam Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, Asiya Parlament Assambleyasının, Avropa Parlamentinin rəhbərlərinə müraciətlər ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Müraciətlərdə bildirilir ki, iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribata əl ataraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya atəşindən istifadə edərək mövqelərimizi ələ keçirməyə cəhd göstərib: “Ermənistan tərəfinin bu cəhdlərinə cavab olaraq Azərbaycan tərəfi təxirəsalınmaz şəkildə adekvat xarakterli əks-tədbirlər görüb və nəticədə Ermənistan ordu birləşmələrinin irəliləməsinin qarşısını ala bilib. Ermənistan tərəfi iki ölkə arasında olan sərhəd bölgələrini daha çox hərbiləşdirib, məqsədyönlü şəkildə və sistemli olaraq mülki əhalini hədəfə alıb”. Müraciətlərdə vurğulanır ki, Ermənistanın bu cür hərbi xarakterli məsuliyyətsiz siyasəti onun üzv olduğu hərbi-siyasi qurumları Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək məqsədindən, həmçinin Azərbaycana qarşı yeritdiyi təcavüzkar və işğalçı siyasətinin məsuliyyətindən yayınmaq niyyətindən irəli gəlir.

Milli Məclis Sədri Sahibə Qafarova tərəfindən ünvanlanan müraciətlərdə xüsusilə vurğulanır ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri öz silahlı qüvvələrini dərhal və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmağı Ermənistandan tələb edir. Lakin Ermənistan tərəfindən sərhəd bölgəsində törədilən sonuncu təxribat aktları bir daha göstərir ki, rəsmi Yerevan münaqişənin sülh yolu ilə, danışıqlar masası ətrafında həll edilməsində qəti şəkildə maraqlı deyil.

“Digər bir mühüm məqam ondan ibarətdir ki, Ermənistan bu təxribatçı hərəkətlərə məhz bütün beynəlxalq ictimaiyyət COVID-19 pandemiyasına qarşı mübarizə apardığı bir vaxtda yol verib. Dolayısı ilə, Ermənistan atəşkəs rejimini bu cür davamlı şəkildə pozmaqla göstərir ki, BMT Baş katibinin COVID-19 ilə bağlı qlobal miqyasda atəşkəs çağırışına dəstək verməsi sadəcə riyakarlıqdır. Buna görə də biz, Azərbaycan Respublikası Milli Məclisi olaraq, Türkdilli Dövlətlərin Parlament Assambleyasından, Parlamentlərarası İttifaqdan, MDB PA Şurası, AŞ PA, ATƏT PA, İslam Əməkdaşlıq Təşkilatı Parlament Məclisi, Asiya Parlament Assambleyası, Avropa Parlamentinin rəhbərlərindən xahiş edirik ki, Milli Məclisin Sədri tərəfindən ünvanlanmış bu müraciət məktubunun bütün üzv dövlətlərə göndərilməsini təmin etsin. Eyni zamanda təşkilat üzvlərini Ermənistanın təcavüzkar hərəkətlərini, Azərbaycana qarşı davam edən işğalçılıq siyasətini və sərhəd bölgəsində törətdiyi bu sonuncu təxribatını qınamağa çağırırıq”, - deyə müraciətlərdə qeyd olunur.

Müraciətlərin sonunda Milli Məclis Sədri tərəfindən bəyan edilir ki, Azərbaycan-Ermənistan sərhədi boyunca Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin mövqelərinə hücum edilməsi, nəticədə baş verən bu hadisələrə və itkilərə görə məsuliyyəti bütövlükdə Ermənistan respublikasının rəhbərliyi daşıyır.

# Adil ƏLİYEV: “Məğlubiyyət Ermənistan tərəfinin taleyidir!”

“Bu gün bütün dünya koronavirus kimi bir xəstəliklə mübarizə aparır, təəssüf ki, bizim mübarizəmiz yalnız bu infeksiya ilə deyil, həm də varlıqları ilə Cənubi Qafqazın və bütün dünyanın bəlasına çevrilmiş Ermənistan adlı bir dövlətlədir. Rəsmi rəqəmlərə baxdıqda Ermənistanın düşdüyü vəziyyətin çətinliyini dərk etmək çox aşkardır. Pandemiyanın yayılmasının qarşısının alınmaması, ölkədə gedən intriqaları, Ermənistan hakimiyyətinin yarıtmaz fəaliyyətini pərdələmək üçün düşmən özünün “ənənəvi” taktikasına yenidən əl atdı”.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev qeyd edib ki, Ermənistan iyulun 12-dən etibarən cəbhənin Tovuz rayonu istiqamətində öz təxribatçı fəaliyyətini həyata keçirməyə cəhd etdi. Çox qısa bir zaman kəsiyində Milli Ordumuz tərəfindən düşmənin hücumunun qarşısı alındı və düşmən xeyli sayda itki verərək geri çəkilməyə başladı. Ayın 12-də başlayan təxribat zamanı düşmən alınan cavabdan nəticə çıxarmayaraq yenidən artilleriya silahlarından istifadə etsə də, ordumuz tərəfindən bu cəhdin də qarşısı çox böyük qətiyyətlə alındı, düşmənin müxtəlif təyinatlı hərbi texnikası, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edildi. Baxmayaraq ki, Ermənistan tərəfi Tovuz rayonu ilə yanaşı, Naxçıvan Muxtar Respublikası istiqamətində də təxribatlarını davam etdirir, həmçinin bu təxribatlar zamanı yalnız mövqelərə deyil, xislətlərinə uyğun olaraq mülki əhalinin yaşadıqları ərazilərə də artilleriya silahlarından atəş açırlar.

Düşmən təxribatı zamanı Milli Ordumuzun hissələri şanlı tariximizə uyğun olan böyük şücaət göstərir və hazırda da Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən üzərlərinə qoyulmuş bütün vəzifələrin öhdəsindən layiqinlə gəlirlər. Belə ki, Prezidentin rəhbərliyi ilə həyata keçirilən Təhlükəsizlik Şurasının iclasında ölkə başçısı bir daha bildirdi ki, şəhidlərimizin qisası layiqincə alınmış, ölkəmiz bir santimetr belə öz ərazisini verməmişdir.

Baş verənləri təhlil etdikdə məlum olur ki, Ermənistan rəhbərliyinin faktiki olaraq ölkədə olan hərc-mərcliyi aradan qaldırması mümkün deyil, eyni zamanda, iqtisadiyyatı çökmüş Ermənistanın pandemiyadan bu qədər əziyyət çəkməsi hakimiyyəti xalqın qarşısında yenidən çıxılmaz vəziyyətə salıb. Bu səbəbdən də baş verənləri pərdələmək məqsədilə Ermənistan silahlı birləşmələri təxribatlara əl atıb. Ermənistan beynəlxalq təşkilatlara müraciət edərək ərazidə atəşkəsin bərqərar olmasını yalvarsa da, özləri açıq şəkildə ərazimizdə təxribat törədirlər. Bu isə o deməkdir ki, Ermənistan rəhbərliyi faktiki olaraq xaotik situasiyadadır, çünki bir tərəfdən xahiş edirlər ki, ərazidə atəşkəs elan olunsun, digər tərəfdən isə özləri təxribat törədirlər. Lakin istər döyüş meydanında Aprel döyüşləri, istərsə də siyasət meydanında Valdayda, Moskvada, Aşqabadda olduğu kimi düşmən yenə məğlub olub. Məğlubiyyət artıq Ermənistan dövlətinin taleyidir və onlar da bu tale ilə barışmalıdır, görünən odur ki, artıq barışırlar da.

Hazırda Silahlı Qüvvələrimiz tarixi bir missiya həyata keçirir və hərbi qulluqçularımız üzərlərinə qoyulan vəzifələri canları bahasına da olsa həyata keçirirlər. Eyni zamanda hər birimizin bu cür vəziyyətdə riayət etməli olduğumuz vəzifələr var: İlk növbədə, Ermənistan təxribata başladığı andan ölkəmizin aidiyyəti qurumları tərəfindən fasiləsiz rəsmi məlumatlar yayılmağa başladı və bu müddət ərzində informasiyasız qaldığımız 1 saat belə olmadı. Bu səbəbdən də hər kəs yalnız rəsmi məlumatlara istinad etməli, əsassız məlumatlara inanmamalı, həmçinin bu cür məlumatların yayılmasından çəkinməlidir. Düşmənə vurulmuş zərəri Ermənistan etiraf etmədiyi halda, Azərbaycan Ordusunun sərrast vurduğu hədəflərin videomaterialları da çox qısa bir zamanda ictimaiyyətə təqdim edildi.

Müharibə həm də informasiya müharibəsidir, düşmənin informasiya müharibəsi zamanı əlavə olaraq dezinformasiyanı ötürməsi, olmamış hadisələri olmuş kimi qələmə verməsi, habelə köhnə və ya həqiqəti əks etdirməyən məlumatları yaymasına şərait yaradılmamalıdır. Milli Ordumuza aid olan məlumatları paylaşmamalı, hər birimiz təmkinli olmalı, veriləcək əmr və göstərişləri vaxtında icra etməyə hazır olmalı, pandemiya dövründə tələblərini nəzərə alaraq dövlət orqanlarının işlərini çətinləşdirən hallara yol verməməliyik. Düşmən yalnız müharibəni cəbhədə aparmır, bu müharibənin bir hissəsi həm də onların “əlaltıları” vasitəsilə həyata keçirilən təxribat siyasətidir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz qüdrətli dövrünü yaşayır. Təkcə dövlət başçısının Birləşmiş Millətlər Təşkilatının növbədənkənar sessiyasının çağırılması təşəbbüsünə dünyanın 130-dan artıq ölkəsi qoşulub. İnkişafımız xarici siyasətlə yanaşı, eyni zamanda, ordu quruculuğu da daxil olmaqla bütün sahələrdədir, güclü ordumuz və güclü dövlətimiz var. Ordumuz bütün növ müasir silahlarla təmin edilib, tam şəkildə komplektləşdirilib, hazırda nəinki Cənubi Qafqazın, eyni zamanda, dünyanın ən güclü ordularından biridir.

Bu gün bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır, qəbul edir, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü daxilində həll edilə biləcəyini bildirir. Habelə Ermənistanın iyul ayının 12-dən başlayaraq törətdiyi təxribata münasibət bildirən bütün ölkələr Türkiyə, Pakistan və digər dövlətlər Ermənistanın Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsini bu günə qədər icra etmədiyini, təxribat siyasətindən əl çəkmədiyini, Azərbaycanın öz ərazinin haqlı olaraq bütövlüyünü qoruduğunu bildirir, dəstək nümayiş etdirirlər.

Bu gün torpaqlarımızın müdafiəsi zamanı ordumuzun generalı, polkovniki və digər yüksək rütbəli zabitləri, öz tabeçiliyində olan hərbi qulluqçu ilə birlikdə qəhrəmancasına çiyin-çiyinə döyüşür, torpaqlarımızı müdafiə edir və şəhidlik mərtəbəsinə yüksəlirlər, onların qisasları düşməndən dərhal alınır və canları bahasına qoruduqları Vətənləri onlara minnətdardır.

Vətənimizin müdafiəsi zamanı şəhid olan hərbi qulluqçularımıza bir daha Allahdan rəhmət, yaxınlarına səbir və yaralılarımıza şəfa diləyirik.

# Ermənistan hərbçilərinin Azərbaycanın dinc əhalisinə qarşı təxribatları ilə bağlı Hərbi Prokurorluqda cinayət işi başlanıb

2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədilə atəşkəs rejimini kobud şəkildə pozaraq gərginliyi artırmaq üçün növbəti hərbi təxribat törətməklə iriçarplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından istifadə edib mövqelərimizi atəşə tutmaqla hücuma keçməyə cəhd göstəriblər.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan özünün təcavüzkar və terrorçu mahiyyətini növbəti dəfə nümayiş etdirməklə milli ədavət və düşmənçilik niyyəti ilə dinc əhalinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutub. Nəticədə Azərbaycan Ordusunun bir neçə hərbi qulluqçusu şəhid olub, digərləri müxtəlif dərəcəli bədən xəsarətləri alıb, o cümlədən cəbhə bölgəsindəki Tovuz rayonunun Ağdam kənd sakini həlak olmaqla ümumilikdə mülki əhaliyə mühüm ziyan dəyib.

Təcavüzkar Ermənistan bu cür təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq kəskin eskalasiya yaratmaqla Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn açıq qəsdlər edib.

Ermənistanın hərbi qulluqçuları tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı yönələn hərbi cinayətlər qeydə alınaraq hazırda hadisə yerində fəaliyyət göstərən istintaq qrupu tərəfindən müvafiq qaydada sənədləşdirilir, həmin faktlar üzrə Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Erməni hərbçilərinin törətdikləri bəşəriyyət əleyhinə olan cinayət faktlarına dair müvafiq sübutların toplanılması istiqamətində hazırda intensiv istintaq hərəkətləri həyata keçirilir.

Hərbi cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüququn normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə müvafiq tədbirlər görüləcək.

Düşmənin hücumunun qarşısını alarkən döyüşdə şəhid olan hərbi qulluqçularımızın göstərdikləri yüksək qəhrəmanlıq əzmi və şücaəti Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaq.

# *Hikmət HACIYEV:* “Ermənistanın hərəkətləri onun üzv olduğu beynəlxalq təşkilatların hüquqi sənədlərinə ziddir”

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiyanın “Lenta.ru” internet nəşrinə Azərbaycanla Ermənistanın dövlət sərhədində baş vermiş hadisələr barədə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.


*Лента.ру: В этот раз обострение началось не в районе Нагорного Карабаха, как обычно, а в Товузском районе. Что, по вашему мнению, произошло?*

Хикмет Гаджиев: В первую очередь надо посмотреть на реальные факты. Они состоят в том, что вооруженные силы Армении создали провокационные действия в Товузском направлении Азербайджана и грубо нарушили режим прекращения огня.

Первыми начали армянские военные, задействовав свою артиллерию, однако ответным огнем и контрнаступлением эта атака была предотвращена. Нарушение режима прекращения огня ясно указывает, что ответственность за все эти события лежит на армянской стороне.

*Но зачем это могло понадобиться Еревану?*

Путем подобных военных авантюр Армения стремится вовлечь в армяно-азербайджанский конфликт военно-политические организации, членом которых является, и избежать ответственности за оккупацию и агрессию против Азербайджана (речь о Нагорно-Карабахском конфликте: непризнанная Нагорно-Карабахская республика требует независимости, Армения ее в этом поддерживает — прим. «Ленты.ру»). Ведь действия Еревана противоречат правовым документам международных организаций, членом которых он является.

Хикмет Гаджиев

**- Bu dəfə vəziyyət adətən olduğu kimi Dağlıq Qarabağ regionunda deyil, Tovuz rayonunda kəskinləşib. Sizin fikrinizcə, nə baş verib?**

- İlk növbədə real faktlara baxmaq lazımdır. Fakt ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın Tovuz rayonu istiqamətində təhrikçi hərəkətlər edib və atəşkəs rejimini kobud şəkildə pozublar.

Birinci olaraq erməni hərbçiləri başlayıb, öz artilleriya qurğularından istifadə ediblər, lakin cavab atəşi və əks-hücum nəticəsində bu hücum dəf edilib. Atəşkəs rejiminin pozulması açıq-aydın göstərir ki, bütün bu hadisələrə görə məsuliyyət erməni tərəfinin üzərinə düşür.

**- Bu, Yerevana nədən ötrü lazım ola bilərdi?**

- Ermənistan bu cür hərbi avantüralar yolu ilə Ermənistan-Azərbaycan münaqişəsinə özünün üzv olduğu hərbi-siyasi təşkilatları cəlb etməyə və Azərbaycana qarşı işğala və təcavüzə görə (söhbət Dağlıq Qarabağ münaqişəsindən gedir: tanınmamış “Dağlıq Qarabağ respublikası” müstəqillik tələb edir, Ermənistan bu məsələdə onu dəstəkləyir - qeyd “Lenta.ru” nəşrinindir) məsuliyyətdən yaxa qurtarmağa çalışır.

Bundan əlavə, mənə belə gəlir ki, Ermənistan özünün gərginləşən sosial-iqtisadi problemləri fonunda bu hərbi münaqişəni eskalasiya etməyə çalışır.

Ermənistan rəhbərliyinin destruktiv siyasəti nəticəsində COVID-19 infeksiyası geniş yayılıb. Sərhəddə gərginlik yaradılması diqqəti daxili problemlərdən yayındırar. Bizim ölkəmiz isə sərhəddə gərginlik yaradılmasının əleyhinədir. Bizim sərhəd xidmətləri və silahlı qüvvələr provokasiyanın qarşısını almaq üçün gücləndirilib.

**- Yəni Bakıda hadisələrin bu cür inkişafına hazır idilər? Ya da hazırlaşıblar?**

- Bilirsiniz, daha bir faktı əlavə etmək istəyirəm: bazar günü - iyulun 12-də biz Tovuz sərhədində Ermənistan tərəfindən ağır hərbi texnika və canlı qüvvə göndərilməsini müşahidə etdik. Bizim fikrimizcə, bu fakt onu sübut edir ki, artilleriya qurğularından istifadə edilməklə hücum əvvəldən hazırlanıb.

Lakin yekunda erməni tərəfi heç nə qazana bilmədi. Bakı provokasiyanın qarşısını almağa və Ermənistan-Azərbaycan sərhədində gərginlik yarada biləcək bu cür insidentlərin aradan qaldırılmasına həmişə hazırdır. Qazax və Tovuz rayonları boyunca sərhədin xeyli hissəsində Azərbaycanın Dövlət Sərhəd Xidmətinin bölmələri dislokasiya edilib. Ermənistan tərəfi, əksinə, iki ölkə arasında dövlət sərhədini sistematik olaraq hərbiləşdirməyə və dinc vətəndaşları qəsdən atəşə tutmağa davam edir.

**- Bu vəziyyət genişlənərək daha ciddi silahlı münaqişəyə çevrilə bilərmi?**

- Bildiyiniz kimi, Azərbaycan ilə Ermənistan arasında ciddi münaqişə artıq 30 ildir - Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və daha yeddi rayonunu işğal edəndən sonra davam edir. Bizim silahlı qüvvələr indi də orada düşmənlə üz-üzə dayanır. Bu, Birinci və İkinci Dünya müharibələrinin ssenarisini xatırladır: o vaxt 100 min hərbçi üzbəüz dayanmışdı.

Bu onu göstərir ki, toqquşma hər an gözləniləndir. Yeni provokasiyalar da gözlənilirmi - bunun cavabını erməni tərəfindən soruşmaq lazımdır, çünki onlar Azərbaycanın torpağını işğal ediblər.

**- Türkiyə Azərbaycanı dəstəklədiyini artıq bildirib. Əgər hər halda münaqişə davam edərsə, onun bütün regionu əhatə etməsi ehtimalı nə dərəcədə böyükdür?**

- Mən bunu real ssenari hesab etmirəm. Bu gün İranın, Rusiyanın və Türkiyənin XİN rəhbərləri öz narahatlıqlarını bildirdilər. Biz bu dövlətlərə Ermənistanın məsuliyyətsiz siyasətinə biganə yanaşmadıqlarına görə təşəkkürümüzü bildiririk. Qonşularımız başa düşür ki, dünyadakı vəziyyət onsuz da qeyri-sabitdir, müharibənin alovlanması isə qonşularımıza da təsir edəcək. Ermənistan düşüncəsiz hərəkətlər edir və onun nəticələri barədə fikirləşmir. Azərbaycan hər zaman bu problemi sülh yolu ilə həll etməyə hazırdır və biz həmişə buna təşəbbüs göstəririk. Biz hər zaman ATƏT nümayəndələri ilə məsələləri müzakirə edirik və digər ölkələrin diqqətini yayındırmaq istəmirik. Ancaq Ermənistan isə digər ölkələri öz təxribatına cəlb etməyə çox maraqlıdır.

**- Rusiya münaqişənin qarşısını almağa kömək edən tərəf kimi çıxış edə bilərmi?**

- Əlbəttə, bu məsələnin tənzimlənməsində Rusiyanın rolu böyükdür. Biz bunu yüksək dəyərləndiririk, Rusiya Federasiyasının rəhbərliyi və şəxsən Prezident Vladimir Putin lazımi addımları atdı. Ancaq təəssüf ki, Ermənistanın işğalçı və təxribatçı addımları məsələni sülh yolu ilə həll etməyə imkan vermir. Biz Ermənistanın məsuliyyətə cəlb edilməsi üçün bütün beynəlxalq ictimaiyyətə müraciət edirik.

Ermənistan məsələnin sülh yolu ilə həllində maraqlı olmadığını sübut edir. Ermənistanın bu təcavüzkar siyasəti bir sıra digər ölkələri də təhdid edir.

# *Prezidentin köməkçisi:* “Ermənistanın cəzasızlığı onu növbəti hərbi avantüralara və təxribatlara sövq edir”

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev iyulun 13-də “TRT World” kanalına müsahibə verib

AZƏRTAC xəbər verir ki, iyulun 12-də Ermənistan silahlı qüvvələrinin sərhəddə artilleriyadan istifadə etməklə növbəti təxribat törətdiyini bildirən Hikmət Hacıyev Azərbaycan Silahlı Qüvvələrinin sərhəddə yerləşən hərbi hissələrinin hədəf alındığını, 4 azərbaycanlı zabit və əsgərin öldürüldüyünü və 5 nəfərin isə yaralandığını diqqətə çatdırıb. Bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğu və Ermənistan hökumətinin buna görə birbaşa məsuliyyət daşıdığı qeyd olunub.

Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın təxribatının qarşısını almaq üçün əks tədbirlər görməyə məcbur olduğunu qeyd edən Hikmət Hacıyev məlum hadisəni təcavüz, gücdən istifadə və Ermənistan silahlı qüvvələrinin məqsədyönlü hərbi təxribatı kimi xarakterizə edib.

Danışıqlar prosesinə toxunan H.Hacıyev Ermənistanın cəzasızlığının onu növbəti hərbi avantüralara və təxribatlara sövq etdiyini xüsusilə vurğulayıb. Beynəlxalq ictimaiyyətin, ələlxüsus ATƏT-in Minsk qrupunun həmsədrlərinin səylərini daha da artırmalı olduğunu bildirən H.Hacıyev Ermənistanın regionda iki ölkənin sərhədində daha bir münaqişə ocağı yaratmağa çalışdığını söyləyib və bunu artıq həssas olan regional sülhü və təhlükəsizliyi təhdid etmək istiqamətində Ermənistanın məsuliyyətsiz fəaliyyəti kimi qiymətləndirib. Azərbaycana qarşı təcavüzkar fəaliyyətə görə məsuliyyət daşıyan Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməkdən imtina etdiyi və azərbaycanlı məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıda bilmədikləri təəssüflə qeyd olunub.

Prezidentin köməkçisi beynəlxalq ictimaiyyəti xüsusilə COVID-19 dövründə Ermənistanın hərəkətlərini ciddi şəkildə qınamağa çağırıb. Habelə məlum təxribatı Ermənistan hökumətinin daxili sosial-iqtisadi problemlərdən diqqəti yayındırmaq cəhdi kimi dəyərləndirib.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin çıxışına toxunan H.Hacıyev həmsədrlərdən təkcə tərəflər arasında məlumat mübadiləsi aparmaqla məşğul olmamalarını bildirərək onlardan danışıqlar prosesinin əsas fundamental əsaslarının icrasının gözlənildiyini qeyd edib. Eyni zamanda Prezidentin köməkçisi münaqişənin həlli üçün Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyini diqqətə çatdırıb.

Görüş xatirinə görüşün keçirilməsinin qəbuledilməz olduğunu söyləyən Hikmət Hacıyev bunun Ermənistan üçün işğalı davam etdirmək üçün görüntü olduğunu xüsusilə vurğulayıb. Habelə Azərbaycanın gözləntilərinin, ilk növbədə, həmsədr ölkələrin və beynəlxalq ictimaiyyətin tədbirlər görməli olduğu bildirilib.

# DTX yalnız rəsmi dövlət orqanlarının məlumatlarına istinad olunması ilə bağlı vətəndaşlara müraciət edib

## Azərbaycan Ordusu, onun döyüş potensialının zəiflədilməsinə yönələn, habelə ərazi itkiləri və insan tələfatı barədə yoxlanılmamış və qərəzli məlumatlar yayan şəxslər haqqında qanunvericiliyə uyğun olaraq ən sərt tədbirlər görüləcək

2020-ci il iyulun 12-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələrinin təxribatları nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər davam edib, qarşı tərəf mülki əhalini və yaşayış məntəqələrimizi atəşə tutub.

Görülmüş cavab tədbirləri nəticəsində düşmənə ağır zərbələr endirilib, o, böyük itkilər verərək geri çəkilməyə məcbur edilib. Respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş hərbi qulluqçularımızın ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyirik.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadla xəbər verir ki, bununla yanaşı, Azərbaycan-Ermənistan sərhədindəki döyüş əməliyyatları ilə bağlı ictimaiyyətə müntəzəm rəsmi məlumatlar verilməsinə baxmayaraq, Azərbaycan Respublikasının müdafiə qabiliyyətinə xələl gətirmək, əhali arasında çaşqınlıq və inamsızlıq yaratmaq üçün ayrı-ayrı sosial şəbəkələrdə və media səhifələrində məqsədyönlü şəkildə hadisələrin mahiyyəti barədə aşkar surətdə yalan və qərəzli, o cümlədən guya, ərazilərimizin bir hissəsinin düşmən tərəfindən tutulması, itkilərimizin sayının gizlədilməsi, hərbi mövqelərimizin və texnikanın ələ keçirilməsinə dair xəbərlər yayılmaqdadır.

DTX bəyan edir ki, bu cür dəqiqləşdirilməmiş və qərəzli məlumatların, mülahizələrin və paylaşımların heç bir əsası yoxdur. Azərbaycan xalqı bilməlidir ki, Silahlı Qüvvələrimiz düşmənin hücumlarının qarşısını qətiyyətlə almağa daim hazırdır. Ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə ən zəruri tədbirlər görülməkdədir. Cəbhə xəttində yaranmış gərgin vəziyyətdə vətəndaşlarımızın soyuqqanlı olmasını, heç bir təxribata uymamasını və dövlətçilik mövqeyindən çıxış etməsini olduqca zəruri hesab edirik.

Azərbaycan Ordusu, onun döyüş potensialının zəiflədilməsinə yönələn, habelə ərazi itkiləri və insan tələfatı barədə yoxlanılmamış və qərəzli məlumatlar yayan şəxslər haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ən sərt tədbirlər görüləcəkdir.

Bir daha vətəndaşlarımızdan milli həmrəylik nümayiş etdirməyi və yalnız rəsmi dövlət orqanlarının məlumatlarına istinad etməyi və inanmağı xahiş edirik.

# Vətəndaşların mobil telefonlarına səfərbərlik çağırışı ilə bağlı göndərilən SMS məlumatlar həqiqətə uyğun deyildir

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti mobil telefon nömrələrinə səfərbərlik çağırışı ilə əlaqədar SMS göndərilməsi ilə bağlı məlumatlara münasibət bildirib.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatla əlaqədar yaranmış vəziyyətdən sui-istifadə edən naməlum mənbədən bəzi vətəndaşların mobil telefon nömrələrinə səfərbərlik çağırışı ilə bağlı SMS göndərilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəsmi olaraq bildirir ki, cəmiyyətdə çaşqınlıq yarada biləcək belə məzmunlu məlumatlar həqiqətə uyğun deyil. Xidmət vətəndaşları daha diqqətli olmağa və yalnız rəsmi məlumatlara istinad etməyə çağırır.

1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2020

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycanın müasir tarixinin ən mühüm mərhələsini təşkil edir. Çünki vaxtilə sovetlər ittifaqının tərkibində olan Azərbaycan Ümummilli Liderin uzaqgörənliyi, siyasi müdrikliyi və qətiyyəti sayəsində inkişaf edib. 1993-cü ildə isə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev müstəqilliyimizi təhlükədən xilas edərək, müasir Azərbaycan dövlətinin banisinə çevrilib. Bu gün dövlətimizin İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurların təməlində Ulu Öndərin əbədiyaşar ideyaları durur.



# Ümummilli Lider Heydər Əliyevin Dağlıq Qarabağa qayğısı və əvəzsiz xidmətləri heç zaman unudulmur

Heydər Əliyevin xalqımız qarşısındakı tarixi və əvəzolunmaz xidmətləri 51 il öncə - 1969-cu ilin iyul ayından başlayır. Məhz Ulu Öndərin respublikamıza rəhbərliyə başlamasından sonra Azərbaycan sürətli inkişaf mərhələsinə qədəm qoydu, ölkə iqtisadiyyatındakı gerilik və durğunluq aradan qaldırıldı, əhalinin sosial rifahı yüksəldi. Respubilkamızın hər yerində genişmiqyaslı quruculuq işlərinə start verildi. Tezliklə iqtisadiyyatda, sənayedə və kənd təsərrüfatında, mədəniyyət, təhsil sahəsində böyük uğurlar əldə edildi. Eyni zamanda Ulu Öndərin respublikamıza rəhbərliyi dövründə sosial-iqtisadi geriliyə son qoyulması ilə yanaşı, cəmiyyətdəki nöqsanların aradan qaldırılması, korrupsiyanın qarşısının alınması istiqamətində mühüm işlər görüldü ki, bu da cəmiyyətimizin bütün üzvləri tərəfindən təqdir olundu.

Təsadüfi deyil ki, məhz Heydər Əliyevin uğurlu rəhbərliyi nəticəsində sovet hakimiyyəti illərində öz daxili imkanlarına yaşamağa qadir olan respublikalardan biri Azərbaycan idi. Bütövlükdə, istər respublikamızın, istərsə də ittifaqın mərkəzi partiya və dövlət hakimiyyəti orqanlarının rəhbərliyində olarkən Heydər Əliyevin qayğısı nəticəsində ölkəmiz sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etmiş, ittifaqın ən qabaqcıl respublikalarından birinə çevrilmişdi. Bu gün də Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı Ümummilli Liderin adı ilə bağlı olmasın.

Heydər Əliyev sovet dövründə istər ölkəmizə rəhbərlik edərkən, istərsə də Moskvada çalışarkən Qarabağın inkişafına çox böyük diqqət və qayğı göstərib. Xüsusilə həmin dövrdə Şuşa şəhərində genişmiqyaslı quruculuq işlərinin aparılması və şəhərin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. O illərdə Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşlərin birində Ümummilli Lider demişdi: *"Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır".*

Tezliklə Heydər Əliyevin təşəbbüsü ilə Şuşanın inkişafına dair qərarlar qəbul olundu. Həmin qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni mehmanxana kompleksləri, çoxmərtəbəli yaşayış və ayrı-ayrı inzibati binalar inşa olundu. Məhz Heydər Əliyevin tarixi xidmətləri ilə Şuşa şəhəri ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1977-ci ilin avqust ayında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi.

Şuşanın ümumittifaq səviyyəli kurort şəhərinə çevrilməsinin böyük əhəmiyyəti var idi. Çünki o vaxtlar sovet ittifaqının hər yerindən - vilayətlərindən, şəhərlərindən bura istirahətə gəlirdilər. Həmin insanlar Şuşada Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə tanış olurdular.

Heydər Əliyevin sayəsində şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görüldü. Azərbaycanda tar, kamança, ud, nağara və s. musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki Şuşada yaradıldı.

1979-cu il yanvarın 12-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə "Ağdam-Xankəndi" dəmiryolu xətti istifadəyə verildi. Həmin gün Şuşaya gələn Heydər Əliyev bir sıra obyektlərin açılışında iştirak etdi.

Məhz Ulu Öndərin Dağlıq Qarabağa diqqət və qayğısının bariz nümunəsi kimi görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi tikildi və 1982-ci il yanvarın 14-də, olduqca soyuq və qarlı bir gündə Heydər Əliyevin iştirakı ilə açılışı oldu. Hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, Heydər Əliyev bu tədbirdə iştirak etdi və əhali kütləvi şəkildə Ulu Öndərlə görüşə gəldi.





Həmin il iyulun 29-da bir daha Şuşaya gəlməsi, özü ilə ailəsini, elm və ədəbiyyat xadimlərini də gətirməsi Ulu Öndərin Qarabağa və Şuşaya olan diqqətinin nümunəsi idi. İyul ayının 29-dan avqust ayının 3-nə kimi bir sıra tədbirlərə qatılan Ulu Öndər həmçinin Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etdi.

Üzeyir Hacıbəyovun və Bülbülün ev-muzeylərinin yaradılması da Heydər Əliyevin Şuşanın mədəni irsinin yaşadılmasına və təbliğinə göstərdiyi diqqətin təzahürü idi.

Sonrakı illərdə də Heydər Əliyev Qarabağdan və Şuşadan diqqət və qayğısını əsirgəmədi. 1982-1987-ci illərdə Moskvada ali vəzifədə işlədiyi dövrdə bu siyasətin davam etdirilməsi şuşalılar tərəfindən hər zaman yüksək qiymətləndirilir. Hər il Vaqif poeziya günlərinin, həmçinin mütəmadi olaraq "Xarı bülbül" musiqi festivalının keçirilməsi bunun bariz nümunələridir. Heydər Əliyevin təşəbbüsü ilə açılan Xankəndi Pedaqoji İnstitutu isə Qarabağın təhsil mühitinin inkişafını və yerli əhali olan azərbaycanlıların ali təhsil almaq imkanlarını artırdı.

Ümumiyyətlə, Ulu Öndərin Şuşanın inkişafına göstərdiyi diqqət və qayğını sovet dövründə, yəni XX əsrin 20-60-cı illərində heç bir respublika rəhbəri göstərməmişdi.

Onu da qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi dövründə erməni millətçiləri açıq çıxışlardan çəkinirdilər. Onlar bu müddətdə torpaq iddialarını heç vaxt dilə gətirməyə cəsarət etmədilər. Ulu Öndər erməni millətçilərinin Azərbaycana qarşı olan münasibətini yaxşı bilirdi və hər zaman onların əməllərinin qarşısını qətiyyətlə alırdı. Bütövlükdə, Heydər Əliyevin 70-ci illərdə həyata keçirdiyi tədbirlər əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağda azərbaycanlı əhalinin mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

Qeyd etdiyimiz kimi, Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyə başlaması cəmiyyət həyatının bütün sahələrində inkişafa səbəb oldu. Ulu Öndər təhsil məsələlərinə də xüsusi diqqət yetirirdi. Ona görə hər il iki min nəfərə qədər azərbaycanlı gənci müxtəlif ixtisaslara yiyələnmək üçün SSRİ-nin ayrı-ayrı şəhərlərinin ali təhsil məktəblərinə oxumağa göndərirdi. Ulu Öndər həmin uzaqgörən siyasəti azərbaycanlı hərbi mütəxəssislərin yetişdirilməsi sahəsində də həyata keçirirdi. Təkcə 1982-ci ildə keçmiş Sovetlər Birliyinin ali hərbi məktəblərinə 550 nəfər azərbaycanlı gənc qəbul edilmişdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması da Heydər Əliyevin adı və vətənpərvər fəaliyyəti ilə bağlıdır. Sonralar SSRİ-nin ali rəhbərlərindən biri kimi fəaliyyət göstərəndə də Heydər Əliyev doğma xalqını unutmadı, Azərbaycanın inkişafı naminə hər cür fədakarlıq göstərdi.



Keçmiş SSRİ və onun hüdudlarından kənarda da böyük nüfuz sahibi olan Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən az sonra, 1988-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürdü və ölkəmizə qarşı hərbi təcavüzə başladı. 1988-1993-cü illərdə Dağlıq Qarabağ və onun ətrafındakı yeddi Azərbaycan rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

1993-cü ilin iyununda Azərbaycan dərin siyasi və iqtisadi böhran, xaos, anarxiya, parçalanma təhlükəsi içərisində olarkən Ümummilli Lider Heydər Əliyevin yenidən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizi vətəndaş qarşıdurmasından xilas etdi. Ən əsası, məhz Heydər Əliyevin sayəsində müstəqilliyimizin yenidən itirilməsinin qarşısı alındı. Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirərək, özünün şah əsəri olan bugünkü Azərbaycan dövlətini yaratdı. Məhz Heydər Əliyevin sayəsində hüquqi dövlət quruculuğu həyata keçirildi, demokratik inkişafın əsası qoyuldu. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. Xalqımızın həmrəyliyi, milli birliyi təmin edildi. O dövrdə mütərəqqi iqtisadi və siyasi islahatların həyata keçirilməsi, yeni neft strategiyasının müəyyən olunması Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətlərinin nümunələridir. Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına üzv qəbul edildi, faydalı əməkdaşlıqlar quruldu. Həyata keçirilən regional və qlobal layihələr Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı.

Ulu Öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı əsas diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəldərək, Ermənistanın işğalçılıq siyasətini dünyaya bəyan edirdi. Məhz Ulu Öndərin sayəsində ölkəmizin üzləşdiyi informasiya blokadası yarıldı və dünya ictimaiyyəti əsl həqiqətlərdən xəbərdar oldu. Ötən əsrin 90-cı illərində bir sıra mötəbər təşkilatların zirvə görüşlərində Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində diplomatik nailiyyətlər əldə edildi. Torpaqlarımızın işğalı faktı beynəlxalq təşkilatların sənədlərində öz əksini tapdı.

Ermənistanın təcavüzü nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi daim Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə qaçqın və məcburi köçkünlərin maddi vəziyyətinin və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra qanun, fərman və sərəncamlar imzalanmışdır.

Bu gün Azərbaycanın yüksəlişi Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən düşünülmüş, uzaqgörən siyasətin real nəticəsidir. Bu sırada qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli hər zaman dövlət başçısının diqqət mərkəzindədir. İndiyədək onların maddi rifahının yaxşılaşdırılması üçün müxtəlif proqramlar həyata keçirilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb və bu proses indi də davam edir. Azərbaycan Prezidentinin tapşırığı ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin köçkün əhalimizin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində apardığı səmərəli işlər nəticəsində minlərlə vətəndaşımızın problemi öz həllini tapıb. Onu da qeyd etmək vacibdir ki, məcburi köçkünlərin həyat şəraitinin ildən-ilə yaxşılaşdırılması Prezident İlham Əliyevin birbaşa nəzarətində saxladığı məsələdir və bu istiqamətdə davamlı tədbirlər görülür. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və diqqəti nəticəsində Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin son illərdə yeni salınmış qəsəbə və şəhərciklərə köçürülməsi doğma torpaqlarından didərgin düşən soydaşlarımızın problemlərinin daim diqqət mərkəzində saxlanıldığını göstərir.

Son aylar bütün dünya koronavirus pandemiyası ilə üz-üzə qalıb. Belə bir vaxtda Azərbaycan Prezidentinin təşəbbüsü ilə həyata keçirilən məqsədyönlü tədbirlər virusun ölkəmizdə ciddi fəsadlar verməsinin qarşısını aldı. Aydın məsələdir ki, belə bir qlobal problem həm də dövlətlərin həmrəyliyini tələb edir. Bu reallığı ilk gündən düzgün dəyərləndirən Prezident İlham Əliyev koronavirusla mübarizədə qlobal həmrəyliyin əldə olunmasına böyük töhfələr verir. Olduqca qürurvericidir ki, Prezident İlham Əliyevin bu istiqamətdəki təşəbbüsləri beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Buna misal olaraq Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də QH-nin Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşünü göstərmək olar. Bu tədbirdə Qoşulmama Hərəkatının üzv dövlətləri ilə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri də iştirak etdilər.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi. 130-dan artıq dövlət tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət işğalçı Ermənistan olmuşdur. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi. Bütün dünya bir daha Ermənistanın əsl simasını gördü, eləcə də Azərbaycana qarşı düşmən münasibətinin şahidi oldu.

Bu gün Azərbaycan dövlətinin qarşısında dayanan əsas və mühüm məsələlər ərazilərin işğalçılardan azad edilməsi və məcburi köçkünlərin doğma yurd yerlərinə qayıtmalarıdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həllinə, ölkəmizin ərazi bütövlüyünün bərpasına, qaçqın-köçkünlərimizin yurd-yuvalarına qayıtmasına çalışan Prezident İlham Əliyev bu məqsədlərə mərhələ-mərhələ nail olur. 2016-cı ilin Aprel döyüşləri də, Cocuq Mərcanlıya qayıdış da bu mərhələlərin tərkib hissələridir. Dövlətimizin rəhbərinin bu istiqamətdə atdığı addımların, həyata keçirdiyi məqsədyönlü siyasətin uğurlu nəticəsini aydın görən məcburi köçkünlər hər zaman cənab Prezidentə öz təşəkkürünü bildirirlər.

Cocuq Mərcanlı Dağlıq Qarabağa böyük qayıdışın başlanğıcıdır. Daha böyük sevinclər və uğurlu əməliyyatlar isə hələ qabaqdadır. Prezident İlham Əliyevin söylədiyi kimi, Aprel döyüşləri, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpa olunması həqiqətən də dövlətçilik tariximizdə, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin ədalətlə həlli uğrunda ölkəmizin apardığı mübarizə tarixində ən əhəmiyyətli səhifələrdən biri kimi qalacaq. Dövlət başçısının Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı məlum sərəncamını tarixi əhəmiyyətli qərar sayan hər bir Azərbaycan vətəndaşı böyük qürur hissi keçirir və hər kəs hesab edir ki, bu qərar uğurlarımızın başlanğıcıdır.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbçilərimizin mövqelərinə hücumunun qarşısının alınması bir daha göstərdi ki, Azərbaycan dövləti Ermənistanı ən sərt şəkildə cəzalandırmağa qadirdir. Aprel və Günnüt qələbələrindən sonra bu hadisə Azərbaycanın hərbi baxımdan Ermənistandan dəfələrlə üstün olduğunu növbəti dəfə göstərdi.

Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmənə sarsıdıcı zərbə vuruldu, çoxsaylı canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında dediyi kimi, düşmənə adekvat cavab verildi: *"Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik".*

Ermənistanın törətdiyi bu əməl onun təcavüzkar siyasət yürütməsinin təsdiqidir. Prezident İlham Əliyevin yürütdüyü siyasətin məntiqi nəticəsi olaraq, Ermənistanın işğalçılıq siyasəti elə hərb meydanında darmadağın ediləcək. Biz, öz doğma torpaqlarından didərgin düşən məcburi köçkünlər Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, qətiyyətli siyasəti nəticəsində tezliklə doğma yurdlarımıza qayıdacağımıza inanırıq. Gün gələcək, ərazilərimiz işğaldan azad ediləcək, Prezident İlham Əliyev Şuşaya, Xankəndiyə, Xocalıya, Laçına, Kəlbəcərə, Ağdama, Füzuliyə, Qubadlıya, Cəbrayıla və Zəngilana qayıdışla bağlı sərəncamlar imzalayacaq və bizim hamımız üçün müqəddəs olan üçrəngli bayrağımız doğma torpaqlarımızda əbədi dalğalanacaq!

**_Bayram SƏFƏROV,_**
**_Şuşa Rayon İcra Hakimiyyətinin başçısı_**

1969 **AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ:** 2020
**qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf**



# Unudulmayan tarix

## Ulu Öndər 1969-cu ildən başlayaraq Azərbaycanda inkişaf və tərəqqi dövrünün əsasını qoydu

*Əvvəli 1-ci səh.*

### Xalqın adamı

1969-cu il iyulun 14-də Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətə başlamasının ilk günlərindən aydın oldu ki, dahi şəxsiyyətin simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. Milli lider isə hər bir xalqın taleyində nadir hadisə, fenomendir. Tarixi təcrübə göstərir ki, liderlik keyfiyyətlərinə malik şəxsiyyətlərin yetişməsində mühit və hadisələr başlıca rol oynayır. Bu prosesdə onlar özləri də mövcud şəraitin qarşıya qoyduğu vəzifələrin icrası üçün yeni vasitə, münasibət və yanaşma əxz edirlər.

Azərbaycan KP MK-nın iyul plenumunda 10 ildən artıq müddətdə respublikaya rəhbərlik etmiş ozamankı birinci katib Vəli Axundov səhhəti ilə bağlı vəzifəsindən istefa vermiş və elmi işlə məşğul olmaq arzusunu bildirmişdir. Plenumda çıxış edən keçmiş Sov.İKP MK-nın katibi İ.V.Kapitonov son illərdə respublikanın bütün ittifaq göstəricilərindən geridə qaldığını bildirmiş, vəziyyətin narahatlıq doğurduğunu xüsusi vurğulamışdır və həmin mötəbər məclisdə Heydər Əliyevin Azərbaycanın birinci katibi vəzifəsinə namizədliyi irəli sürülmüş və yekdilliklə dəstəklənmişdir. Bu isə respublikanın tarixində yeni siyasi mərhələnin başlanğıcı olmuşdur. Ulu Öndər həm birinci, həm də ikinci dəfə ölkənin ən ağır vaxtlarında - ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı dövrlərdə rəhbərliyə gəlmiş və respublikanı nəinki düşdüyü vəziyyətdən çıxara bilmiş, habelə qısa vaxtda onun sürətli inkişafına nail olmuşdur. Ulu Öndər 1969-cu ildə ölkə rəhbərliyinə gəlişi ilə cəmiyyətə ədalət gətirmişdir. Haqqın gücünə insanların sönmüş inamını bərpa etmişdir. İnsanlar görmüşdülər ki, artıq yuxarılarda onların da sözünü deyən, dərdlərini, problemlərini eşidən var.

### İlk növbədə sağlam milli kadr bazası yaradıldı

1970-1980-ci illərdə Heydər Əliyevin apardığı irimiqyaslı yenidənqurma işləri postsovet məkanının digər respublikaları tərəfindən diqqətlə izlənir, atdığı hər bir addım geniş müzakirələrə səbəb olurdu. Həmin dövrdə azərbaycanlılar üçün çətinlik törədən amillərdən biri sovet Azərbaycanının partiya və inzibati orqanlarında kök salmış kosmopolit kadrların olması idi. Xüsusilə o zaman Bakıda yaşayan ermənilər siyasi-iqtisadi, hərbi və hüquq mühafizə orqanlarında, bir sözlə, hakimiyyətin əksər pillələrində təmsil olunur və bütün qüvvələrini milli kadrların yerləşdirilməsinin qarşısını almağa yönəldirdilər. Rəhbərliyə gəlməmişdən əvvəl DTK orqanlarında durmadan yüksələn və yüksəldikcə də Azərbaycan milli elitası ilə güclü əlaqələr yaradan, xalqını, millətini sevən böyük vətənpərvərin qarşısıalınmaz qətiyyəti onları qorxuya salırdı. Heydər Əliyev uzaqgörən və məqsədli siyasi xətt yeridərək birinci növbədə milli kadrların yüksəlişinə nail oldu və rəhbər vəzifələrdən erməniləri uzaqlaşdırdı. Ulu Öndər hələ o zaman çox gözəl anlayırdı ki, ən qorxulu qüvvə onu hədəfə götürmüş erməni mafiyasıdır.

Moskvadan himayə və məsləhət alan bu millətin nümayəndələri respublika rəhbərinə hər an göz qoyur, onun hər bir hərəkətini özləri üçün müəyyənləşdirməyə çalışırdılar. Ermənilərin fitnələri isə ustalıqla dəf edilirdi. Heydər Əliyev siyasətinin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyatla yanaşı, sağlam milli kadrlar yetişdirmək idi. Ona görə də ölkə rəhbəri milli təhsilin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün fəal təhsil və kadr konsepsiyasını irəli sürdü. Ali məktəblərə qəbul sahəsində neqativ hallara qarşı sərt mübarizə başlandı.

Təhsildə islahatlar dönüş xarakteri aldı. Yeni ali məktəblər və onların filialları yaradıldı. Keçmiş SSRİ-nin dünya səviyyəli təhsil ocaqlarına tələbələrin göndərilməsi böyük miqyas aldı. Milli kadr bazasının yaradılması üçün uzaqgörən məqsədli niyyətlər özünü açıq şəkildə göstərirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi. Faktiki olaraq qısa müddətdə Azərbaycanın yeni tipli milli kadr bazası yaradıldı, bir çox elmi məktəblərin əsası qoyuldu. 1969-cu ilin avqust plenumunda isə iki əsas prinsip də irəli sürüldü: milliləşmə konsepsiyasına uyğunluq və yüksək professionalizm.

Ötən əsrin 70-ci illərinin ortalarında ağıllı kadr siyasəti nəticəsində bu mühüm vəzifələr yerinə yetirildi. Hər bir erməni kadrının vəzifədən uzaqlaşdırılması o zaman ciddi qalmaqal doğursa da, görülən tədbirlər, aparılan əməli işlər ən yüksək səviyyədə respublika rəhbəri Heydər Əliyev tərəfindən birmənalı şəkildə himayə olunurdu. Moskvaya qədər hamı bilirdi ki, Azərbaycanın birinci katibi aşağıların apardığı kadr siyasətini və dəyişiklikləri daim müdafiə edir. Çünki həmin kadr siyasəti elə rəhbərin özünün yeritdiyi siyasət idi.

### Ulu Öndər ana dilində danışan ilk rəhbər idi

Ulu Öndər ana dili siyasətinə xüsusi diqqət yetirirdi. Təbii ki, sovet dövrünün ehkamları respublika rəhbərindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev rəsmiyyətçilikdən kənara çıxmaq üçün imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Böyük rəhbərin hələ ötən əsrdə Azərbaycana birinci katib seçiləndən bəri yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq. Ümummilli Lider Azərbaycan dilini yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada ictimai mövqeyi ilə tanınan bir xalqın milli sərvəti olduğunu dərindən dərk edirdi. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən mərasimdə respublika rəhbəri ana dilində çıxış etdi. 1978-ci ildə Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması haqqında müddəanın müəllifi oldu.

1995-ci ildə Konstitusiya Komissiyasının sədri Heydər Əliyev layihədə dövlət dilinin adı ilə bağlı geniş müzakirələr keçirdi. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi tədbirləri haqqında" fərman imzaladı. Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qüvvəyə mindi.

### Güclü dövlət, güclü iqtisadiyyat

Hələ o zaman Ulu Öndər Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycan iqtisadiyyatını yüksək səviyyəyə qaldırmadan müstəqilliyə keçmək və müstəqil ölkə kimi yaşamaq qeyri-mümkündür. Buna nail olmaq üçün respublika rəhbəri bütün vasitələrlə Azərbaycan iqtisadiyyatını inkişaf etdirməyə, sovetlər birliyinin mərkəzi dövlət və təsərrüfat orqanlarında respublika üçün çox böyük vəsaitlər ayrılmasına çalışırdı. Qısa tarixi zamanda Heydər Əliyev dünyanın ən iri müəssisələrinin Bakıda tikintisinə nail oldu. Kənd təsərrüfatında, yerli emal sənayesində uğurlar qazanıldı. Bunlar praktik olaraq Azərbaycanın müstəqilliyə keçməsini təmin edəcək milli iqtisadi bazanın yaradılması demək idi.

Respublikada iri maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələri inşa olundu, habelə elektroenergetika, nəqliyyat kompleksi ciddi şəkildə inkişaf etməyə başladı. 1980-ci ilin göstəricilərinə görə sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artaraq 8,4 milyard rubla çatdı. Azərbaycanda sənaye istehsalı üç dəfə yuksəldi. 1976-cı ildən etibarən respublika sənaye istehsalının artım sürətinə görə ittifaq üzrə ön sıralara çıxdı.

1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalının həcmi 1969-cu ildəkinə nisbətən 3,9 dəfə artdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə keçmiş ittifaq hökuməti 1979-cu ilin 22 fevralında "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi haqqında" qərar qəbul etdi. Bu qərara görə 1985-ci ilədək Azərbaycanda üzüm istehsalı üç milyon tona çadırılmalı idi.

Respublikada geniş tikinti-quruculuq işləri aparılırdı. 1970-1985-ci illərdə yeni mənzillər tikilmişdi ki, bu da sovet Azərbaycanında əvvəlki illərdə inşa edilmiş binaların 70 faizinə bərabər idi. Yeni iş yerlərinin yaradılması nəticəsində iqtisadiyyatda çalışanların ümumi sayı 1985-ci ildə 2,4 milyon nəfərə çatmışdı. Qeyd edək ki, bu, 1970-ci ilin müvafiq göstəricilərindən 1,5 dəfə çox idi. 1969-cu ildə orta aylıq əmək haqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yerdə dayandığı halda, 1980-ci ildə dördüncü yerə yüksəlmişdi.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimindəki çıxışında Ulu Öndərin sovet dövründəki xidmətlərini qeyd edərək demişdir: "Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, - gənclər təbii ki, bunu bilmirlər, - respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağı" alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir".

### Vətən sevgisinin gücü

Respublikanın yeni rəhbəri milli-mənəvi dəyərlərimizin qorunmasına, Azərbaycanın elmi potensialının inkişafına böyük diqqət göstərirdi. Ölkənin mədəniyyət və incəsənət xadimləri, ziyalılar keçmiş İttifaq miqyasında yüksək dövlət mükafatları ilə təltif edilir, ziyalıların cəmiyyətdəki nüfuzunun bərpa edilməsinə xüsusi əhəmiyyət verilirdi. Ulu Öndər Azərbaycanın ziyalılarını sovet rəhbərliyinin təzyiqlərindən qətiyyətlə müdafiə etməyə, onların sıxışdırılmasının qarşısını almağa da müvəffəq olmuşdu. Bunun ən bariz göstəricisi ondan ibarətdir ki, 1969-cu ildən sonra Azərbaycanda bir nəfər də olsun dissident ziyalı qeydə alınmamışdı. Bir sözlə, həmin illərdə biz dilimizi, ədəbiyyatımızı, tariximizi, musiqimizi - nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.

### Bu, bir cəsarət nümunəsi idi

Heydər Əliyev bu nümunəni tarixin başqa anlarında da təkrar-təkrar nümayiş etdirdi. Milli ruhun daşıyıcısı olan ziyalılarımızı təzyiq və təqiblərdən qoruyanda da, bu ruhu əks etdirən əsərlərə himayədarlıq edib onlara həyat qazandıranda da, keçmiş SSRİ-nin ali rəhbərlərindən biri kimi Kremldə çalışdığı illərdə Azərbaycan və ümumilikdə müsəlman ölkələri ilə bağlı göstərdiyi təəssübkeşlikdə, prinsipiallıqda da...

Ulu Öndərin uzaqgörənliyini sübut edən faktlardan biri Azərbaycanda C.Naxçıvanski adına hərbi məktəbin açılması idi. Bu addım respulikada hərbçi kadların hazırlanmasına geniş şərait yaratdı.

Böyük rəhbərin əsas diqqət yetirdiyi məsələlərdən biri də elmin inkişafını təmin edən addımların atılması ilə bağlı olmuşdu. Məhz həmin 1969-cu il plenumundan sonra Azərbaycanda elm adamlarının sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirildi. Azərbaycanlı alimlər ən yuksək dövlət mükafatları ilə təltif olunur və ittifaq miqyasında tanınmağa başlayırdılar. Onların əsərləri Rusiyada, xarici ölkələrdə çap edilirdi, respublikada böyük elmi konfranslar keçirilirdi.

Bütün bunlar sovet Azərbaycanının tarixində çox əlamətdar bir dövrün əsasının qoyulduğunu təsdiqləyir. Heydər Əliyevin elan etdiyi prinsip və ideyalar ötən əsrin 70-ci illərində respublikada tərəqqinin və intibahın başlıca istiqamətlərini müəyyənləşdirmişdi. Ulu Öndərin sovet siyasi arenasında rəhbərliyə gəlişi bütün maneələri dəf edərək, ilk növbədə, müstəqil düşüncəyə yol açmışdır. Ümummilli Lider dövlətçiliklə bağlı çıxışlarında həmişə deyirdi: "Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır... Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin". Heydər Əliyev fenomeninin böyüklüyü məhz xalqı qarşısında daim yüksək mənəvi və siyasi məsuliyyət hissi daşıması, ictimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə çalışması ilə xarakterizə olunmuşdur. Ulu Öndər qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən təkcə daxili inamına, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Bu isə dahi rəhbərə Ümummilli Liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan yüksək qrupa aid edilən 69 ölkə arasından 13-cü yerdə qərarlaşıb

*Əvvəli 1-ci səh.*

"Elektron Hökumətin İnkişafı İndeksi"ni təşkil edən meyarlara "Onlayn Xidmət İndeksi", "Telekommunikasiya İnfrastrukturu İndeksi" və "İnsan Kapitalı İndeksi" daxildir. 2020-ci il qiymətləndirmə nəticələrinə əsasən Azərbaycan "Onlayn Xidmətlər İndeksi" üzrə 100 mümkün baldan 70 bal (dünya üzrə orta bal 56) toplayıb. BMT-nin hesabatında "Onlayn Xidmət İndeksi" üzrə ölkələri qruplaşdırarkən Azərbaycan İsrail, Macarıstan, Almaniya, Çexiya, Belarus kimi ölkələrlə birlikdə "yüksək indeksli" dövlətlərin qrupuna daxil edilib. Azərbaycan "Telekommunikasiya İnfrastrukturunun İnkişafı İndeksi" üzrə 65 bal (dünya üzrə orta bal 54), "İnsan Kapitalı İndeksi" üzrə isə 77 bal (dünya üzrə orta bal 68) toplayıb.

Ümumilikdə isə ölkəmiz dünyanın 193 ölkəsi arasında "Elektron Hökumətin İnkişafı İndeksi" üzrə 70-ci yerdə öz mövqeyini qoruyub saxlaya bilib.

Hesabatda, həmçinin Azərbaycanın bu sahədə malik olduğu müsbət təcrübə qeyd edilib. Belə ki, "myGov"un "şəxsi kabinet" əsaslı elektron hökumət portalı olaraq vətəndaşlara şəxsi, maliyyə, təhsil və digər məlumatlarını əldə etmək və dövlət xidmətlərinə müraciət etmək imkanı verdiyi qeyd edilir. Portalın dövlət xidmətləri sahəsində yeni yanaşma tətbiq edərək, istifadəçi ehtiyaclarını real vaxt rejimində və data əsaslı prediktiv elektron hökumət konsepti əsasında reallaşdırdığı vurğulanır. "ASAN Login" sistemi vasitəsilə isə çoxlu sayda elektron xidmətlərə çıxışın olduğu bildirilir.

Hesabatda, eləcə də "Elektron İştirak İndeksi" ilə bağlı nümunə olaraq "İdeya Bankı" layihəsinin adı çəkilərək saytına link verilib.

Ölkəmizdə elektron hökumət quruculuğunun sürətləndirilməsi və effektiv koordinasiyanın həyata keçirilməsi məqsədilə Prezident İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən, 2018-ci ildə Elektron Hökumətin İnkişafı Mərkəzi yaradılıb.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan mərkəz bu günədək dövlət xidmətlərinin elektronlaşdırılması sahəsində vətəndaşların həyatını asanlaşdıran bir sıra layihələr həyata keçirib. Bura "şəxsi kabinet" əsaslı və vətəndaşlara proaktiv xidmətlər göstərən "myGov" elektron hökumət portalı, "e-Satınalma" dövlət satınalmalarının vahid portalı, "e-Agro" Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi, "e-hərrac" elektron hərrac sistemi, "ASAN Viza", "ASAN ödəniş", "ASAN Finans", "ASAN Login" və digər layihələr aiddir.

Mərkəz, həmçinin pandemiya ilə mübarizə zamanı "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"ni ərsəyə gətirib. Vətəndaşların işlərini evdən çıxmadan görə bilmələri üçün bir sıra yeni xidmətlər elektronlaşdırılıb, "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinə dair məlumatların onlayn əldə edilməsi məqsədilə "ASAN Bot" istifadəyə verilib.

"BMT Elektron Hökumət Sorğusu 2020" aşağıdakı linkdən yüklənilə bilər:




https://publicadministration.un.org/egovkb/Portals/egovkb/Documents/un/2020-Survey/2020%20UN%20E-Government%20Survey%20(Full%20Report).pdf

# Birlik və inamdan güc alan siyasət və qətiyyət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı nitqi ölkəmizin sərhədlərinin etibarlı şəkildə daim qorunacağına inamın və torpaqlarımızın azad ediləcəyinə dövlət səviyyəsində siyasi-hərbi təminatın konkret ifadəsidir.



Ona görə də dövlət başçısının bəyanatında ifadə olunan qətiyyətli mövqe Azərbaycan xalqının ölkəmizin rəhbərinə bəslədiyi sarsılmaz inama, möhkəm və etibarlı dəstəyə əsaslanır. Prezident İlham Əliyevin bəyanatı dünya ictimaiyyəti qarşısında Azərbaycan Respublikasının ölkələrin ərazi bütövlüyü prinsipinə davamlı və məsuliyyətli münasibətlərini növbəti dəfə aydın surətdə ifadə edir.

Müstəqil Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasət beynəlxalq hüquq normalarına və xalqımızın iradəsinə tamamilə cavab verir. Bu mənada Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasındakı nitqi Ermənistanı növbəti böhrana aparan Paşinyan rejiminə və onların havadarlarına sarsıdıcı zərbədir. İşğalçı və təcavüzkar Ermənistanın Tovuz rayonu ərazisində torpaqlarımıza hərbi müdaxilə etməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə və eyni zamanda beynəlxalq aləmdə qazandığı liderlik nüfuzu qarşısında Paşinyan rejiminin çaşqınlıq və miskinliyinin təzahürüdür.

Azərbaycan dünya miqyasında beynəlxalq birliyin səylərini və təşəbbüslərini istiqamətləndirən və əlaqələndirən bir ölkə kimi böyük nüfuz qazanmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə son iki-üç ay ərzində Türk Dövlətləri ölkələrinin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının üzvü olan dövlətlərin rəhbərləri ilə, Türkmənistan və Əfqanıstan prezidentləri ilə, Dünya Bankının rəsmiləri ilə keçirilmiş onlayn Zirvə görüşləri və aparılmış müzakirələr Azərbaycan Respublikası Prezidentinin dünya liderlərindən biri olduğunu bir daha isbat etdirir. Birləşmiş Millətlər Təşkilatının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünya ölkələri tərəfindən dəstəklənməsi Azərbaycan dövlətinin rəhbərinin növbəti böyük uğurudur.

Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilməsinə beynəlxalq birlik tərəfindən tam dəstək verilmiş Birləşmiş Millətlər Təşkilatının xüsusi sessiyasının iclasında Ermənistanın iştirak etməkdən imtina etməsi bədnam ölkənin dünya ictimaiyyəti üçün zəruri olan birlik, həmrəylik və qarşılıqlı əməkdaşlıq prinsiplərindən çox uzaq olduğunu, mövcud rejimin hər cəhətdən geridə qalmış ölkəsində yaranmış mürəkkəb ictimai-siyasi bataqlıqdan uzağa gedə bilmədiyini aydın surətdə təsəvvür etməyə imkan verir.

Siyasi dayaqlarını və nüfuzunu itirmiş, ölkəsində yaranmış böhrandan çıxış yolu tapmaqda aciz qalan Nikol Paşinyanın çarə yolunu hərbi müdaxilədə və təxribatda axtarması onun erməni xalqına vəd etdiyi xülyaların arxasında pərdələnmək dövrünün tükəndiyini göstərir. Ermənistanın Azərbaycan torpaqlarına növbəti hərbi müdaxiləsi də bu təcavüzkar ölkənin və ona rəhbərlik edən Paşinyan kimi populist "siyasətçi"nin işğalçılıq niyyətlərini davamı etdirdiklərini bir daha nümayiş etdirir. Lakin Ermənistan tərəfi başa düşmür ki, ümid etdikləri hərbi müdaxilə eyforiyası Paşinyan rejimini növbəti böhrana aparmaqdan uzağa gedə bilməyəcəkdir.

Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı bəyanatı Azərbaycan xalqının səfərbərlik, vətənpərvərlik və birlik andı kimi səslənir və xalqımızın Ali Baş Komandanın əmrinə daim hazır olmasına dərin inamı ifadə edir.

Xalqımızın bütün təbəqələri kimi, Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi də Prezidentin atdığı bütün addımları, tutduğu qətiyyətli mövqeyi ürəkdən dəstəkləyir və müdafiə edir.

Ermənistan tərəfi unutmamalıdır ki, onun təxribatçı hərbi qüvvələri son illər Lələtəpədə və Qızılqayada torpaqlarımızı qəsbkar düşməndən azad etmiş qəhrəman Azərbaycan ordusu ilə üz-üzədir. Azərbaycan xalqı inanır ki, Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız və ordumuz böyük qələbəyə nail olacaqdır. Prezident İlham Əliyevin birlik və inamdan doğan müdrik siyasəti və Ali Baş Komandan kimi qətiyyəti mütləq qalib gələcəkdir.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti,***

# Azərbaycan əzici hərbi üstünlüyə malik olduğunu bir daha nümayiş etdirdi

## İlham ƏLİYEV: "Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır"

*Əvvəli 1-ci səh.*

Başqa cür desək, bu hadisə xarici düşmən mövzusunu qabartmağa və Paşinyanın səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb. O hesab edir ki, xarici təhlükə qarşısında cəmiyyəti toparlamaq, müxalifəti tərk-silah etmək və hakimiyyətə qarşı formalaşan ciddi təhlükəni aradan qaldırmaq mümkün olacaq.

Lakin hazırda Ermənistanda hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Paşinyanın isə bu yolla daxili auditoriyada uğur əldə edəcəyi mümkün deyil. Çünki Ermənistanın əvvəlki hakimiyyətləri bu ssenaridən vaxtilə istifadə ediblər, nəticədə isə həm Azərbaycanın qarşısında məğlubiyyətə uğrayıblar, həm də özlərini ifşa ediblər.

### Azərbaycan öz sərhədlərini layiqincə qorudu

Dövlət sərhədinin Tovuz istiqamətində iyulun 12-dən başlayan gərginlik davam edir. Mövqelərimizi ələ keçirmək məqsədilə erməni hərbi birləşmələri hücuma keçməyə cəhd göstərib. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edilib. Ciddi itkilər verən düşmən geri oturdulub. Azərbaycan Ordusunun Ermənistanın hərbi bölmələrinin mövqeyinə güclü zərbə endirməsi yayılmış videolardan da görünür.

Artilleriya atəşi ilə qəflətən hücum həyata keçirən düşmənlə döyüşdə həlak olan hərbçilərimizin qisası isə layiqincə alınıb. Bununla bağlı Təhlükəsizlik Şurasının iyulun 13-də keçirilən iclasında Prezident, Ali Baş Komandan İlham Əliyev Ermənistanın təxribatının qarşısının qətiyyətlə alındığını bəyan etdi: *"Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər".*

Hazırda əməliyyat şəraiti erməni hərbi birləşmələrinə qarşı ciddi cəza tədbirləri həyata keçirən qoşunlarımızın nəzarəti altındadır. Ermənistan hakimiyyətinin guya Azərbaycan hərbi bölmələrinin mövqeyini ələ keçirməsi, yeni yüksəkliklər əldə etməsi barədə iddialar yalan və dezinformasiyadan başqa bir şey deyil. Hətta bu ölkənin ictimaiyyəti, fəal sosial şəbəkə istifadəçiləri belə bu kimi iddiaları ironiya ilə qarşılayırlar. Sosial şəbəkələrin erməni seqmentinin istifadəçiləri ordumuzun əks zərbəsi nəticəsində 70-dən çox Ermənistan əsgərinin və zabitinin öldürüldüyünü, 300-dən çox hərbçinin isə yaralandığını bildirirlər.

Onu da qeyd edək ki, dövlət ya sülhsevər siyasət yürütməli, yaxud aqressiv və işğalçı olmalıdır. Azərbaycanın Ermənistanla sərhəddin Qazax və Tovuz istiqamətlərinə əsasən sərhədçiləri yerləşdirməsi respublikamızın həyata keçirdiyi siyasətin mahiyyətində beynəlxalq hüquqla təsbit olunmuş prinsiplərin dayandığını göstərir. Qarşı tərəfdə isə erməni hərbi birləşmələri cəmləşib ki, bu da Ermənistanın yürütdüyü militarist və işğalçılıq siyasətinin mahiyyətinə tam uyğundur. Amma nə qədər təcavüzkar olsa da, Ermənistan Azərbaycan qarşısında gücsüzlüyünü anlayır. Ona görə təxribatı dövlət sərhədi istiqamətində törətməklə daxil olduğu təşkilatlara arxalanır. Lakin bu gün Azərbaycanın beynəlxalq münasibətləri, ayrı-ayrı dövlətlərlə dostluq əlaqələri elə bir səviyyədədir ki, Ermənistanın daxil olduğu təşkilatlar belə onun müdafiə etməyəcəklər. Bunu son illərdə baş verən bir sıra hadisələr də təsdiq edib.

Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır. 2016-cı ilin Aprel döyüşləri, Lələtəpə, Talış əməliyyatları, 2018-ci ildə Naxçıvanda Günnüt əməliyyatı ordumuzun hansı imkanlara qadir olduğunu göstərib. Bugünlərdə Tovuz istiqamətində baş verənlər isə bir daha Azərbaycanın Ermənistan üzərindəki əzici hərbi üstünlüyünü nümayiş etdirdi.

Ən əsası odur ki, bu cür təxribatçılıq əməlləri Ermənistanın öz başında çatlayır və Azərbaycanı sürətlə böyük Qələbəyə yaxınlaşdırır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bu kənd bizim kəndimizdir!

*Əvvəli 1-ci səh.*

Düşmənin Tovuzun sərhəd kəndlərində atəşkəsi pozması birinci dəfə deyil. O cümlədən vaxtilə çörəyi-suyu ilə dolandıqları Ağdam kəndinə də dönə-dönə xəyanətkarlıq ediblər. O kənd ki, uzun illərdir yağı ilə üzbəüz dayanıb, ondan qorxmayıb, lazım gəldikdə layiqincə cavabını verib, bir qarış belə, geriyə çəkilməyib. O kənd ki, yenə də neçə gündür yağı onu rahat buraxmır. Lakin əbəs yerə!..

Hələ neçə illər bundan qabaq düşmən torpağımıza susayanda bu kəndin sakinləri silaha sarılaraq yurda sipər oldular. Sonra ordumuz formalaşdı, gücləndi, yurdun, o cümlədən Ağdam kəndinin müdafiəsi möhkəmləndi. İndi bu kəndi həm də Azərbaycanın müxtəlif bölgələrində böyüyüb boya-başa çatmış igidlər qoruyur.

Çünki bu kənd Azərbaycan kəndidir, çünki bu kənd bizim kəndimizdir, hər bir azərbaycanlının kəndidir. Mənim üçün Ağdam üstəlik doğma kəndimdir, nənələrimin, babalarımın uyuduğu torpaqdır, atamın və anamın son mənzilə qovuşduğu məkandır. Az qala hamının bir-biri ilə qohumluq telləri ilə bağlandığı, mənim də doğmalarımın yaşadığı və yeri gələndə uğrunda qanından-canından keçdiyi, şəhid olduğu vətəndir.

Elə bugünlərdə şəhidlik zirvəsinə yüksələn Azərbaycan övladları, qardaşlarımız və oğullarımız sırasında daha bir doğmam, bibim nəvəsi Elşad Dönməz oğlu Məmmədov da var. Toyunun "Vağzalı" səsi hələ heç qulaqlardan getməyib, qundaqda körpəcə oğlu qalıb...

Gengüzey, Qaraqaya, Dolmatlı silsilə dağlarının ətəklərində məskən salmış bu obanın belə igidləri çoxdur. Onlardan biri elə 1992-ci ilin martında dayım Nəsirin 22 yaşında şəhidlik zirvəsinə yüksəlmiş ciyərparası, Azərbaycanın Milli Qəhrəmanı Naiq Yusifovdur. Burada ayrı-ayrı illərdə torpaq uğrunda Məmmədalı Tağıyev, Mirəziz Əzizov kimi igidlər də canından keçib. Neçə-neçə dinc sakin, o cümlədən qadın, uşaq namərd gülləsinə tuş gəlib. Dünən yaşlı kənd sakini Əziz Əzizov həyətinə düşən mərmidən həlak olduğu kimi...

Yenə düşmənin həmin ssenarisi, yenə onun həmin işğalçılıq siyasəti, yenə də Azərbaycan övladının mərdliyi, qəhrəmanlığı, şəhidliyi... Yenə həmin məkan...

1994-cü ilin iyul ayının ortalarında erməni vandalları sərhədin bu ərazisində növbəti dəfə atəşkəsi pozmuşdular. O vaxt mərd müdafiəçimiz Sahib Hüseynov elə öz doğum günündə - 23 yaşı tamam olan gün düşmənə zərbə endirərək əbədiyyətə qovuşmuşdu...

Bu gün torpaq uğrunda şəhid olanlar onların övladları və kiçik qardaşlarıdır. Dəxli yoxdur, hansı bölgəmizdəndirlər, İsmayıllıdanmı, Biləsuvardanmı, Ağstafadanmı, ya başqa bir şəhərdən və kənddənmi... Vətən vətəndir! Qarabağın böyük Ağdam rayonunda olduğu kimi, Tovuzun kiçik Ağdam kəndində də hər qarış torpaq müqəddəs və əzizdir. Möhtərəm Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, biz bir qarış torpağımızı da düşmənə verən deyilik! Mənfur düşmən də bunu çox yaxşı bilir, ona görə də daim vurnuxur, rahatlıq tapa bilmir, yeni təxribatlar törətməyə can atır. Ancaq yenə də əbəs yerə!

Bu gün Azərbaycan anası qəlbinə daş bağlayaraq "Oğulu böyütmüşəm vətən üçün!" deyir. Bütün Azərbaycan obalarından insanların gözləri Tovuz istiqamətinə zillənib. Düşmən bu bölgəmizin Ağdam və digər sərhəd kədlərini atəşə tutmaqda davam edir. Dinc sakinlərin güvən yeri dövlətimiz, Baş komandanımız, qüdrətli ordumuzdur. Tez-tez telefonla əlaqə saxladığım həmkəndlilərim Elman Sadıqov, Rasim Hüseynov, İsa Əliyev və başqaları da məhz belə deyirlər. Həm də əlavə edirlər ki, yaşlarından asılı olmayaraq hər biri silaha sarılmağa hazırdır. Çünki bu torpaq bizim torpağımızdır, bu kənd bizim kəndimizdir!..

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Hulusi AKAR: "Ermənistanın Tovuz istiqamətində hərbi hücumlarını şiddətlə qınayırıq"

"Ermənistanın Azərbaycanın Tovuz istiqamətində həyata keçirdiyi hərbi hücumları şiddətlə qınayırıq".

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar söyləyib. Nazir deyib: "Hücumu qətiyyətlə dəf edərək şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, qardaş Azərbaycan xalqına başsağlığı verir, yaralılara şəfa diləyirik. Dağlıq Qarabağı işğal edərək illərdən bəri təcavüzkar mövqe sərgiləyən Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin yanında olmaqda, "Bir millət, iki dövlət" deyərək azərbaycanlı qardaşlarımıza var gücümüzlə dəstək verməkdə davam edəcəyik".

## Rəsmi Kişineu Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib

Moldova Respublikasının Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi (XİAİN) son günlərdə insanların həlak olması ilə nəticələnmiş silahlı toqquşmaların baş verdiyi Azərbaycan-Ermənistan sərhədindəki hadisələri narahatlıqla izləyir.

AZƏRTAC Moldova XİAİN-in rəsmi saytına istinadla xəbər verir ki, XİAİN həlak olanların ailələrinə başsağlığı verir və müvafiq tərəfləri güc tətbiq etməkdən çəkinməyə, gərginliyin artmasının qarşısını almaq üçün səylərini davam etdirməyə, beynəlxalq hüququn prinsip və normalarına hörmət əsasında uzunmüddətli siyasi həll tapmağa çağırır.

Moldova Respublikası münaqişəli vəziyyətin Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə hörmət əsasında dinc yolla nizamlanmasının tərəfdarıdır.

## Ukrayna Ali Radasının deputatı Ermənistan silahlı qüvvələrinin son təxribatını pisləyib

Ukrayna Ali Radasının deputatı Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatı pisləyib.

Azərbaycan-Ukrayna Parlamentlərarası Dostluq Qrupunun həmsədri Vladimir Kreydenko AZƏRTAC-a məxsusi açıqlamasında bildirib ki, Ukrayna beynəlxalq səviyyədə tanınan sərhədlər daxilində Azərbaycanın ərazi bütövlüyünə və toxunulmazlığına sadiq qalır. Deputat bildirib ki, Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsinə yönəlmiş hər cür cəhdlər pislənilməlidir.

"Döyüşlərdə həlak olan Azərbaycan əsgərlərinin və hərbçilərinin ailələrinə və yaxınlarına başsağlığı verirəm və tərəfləri təmkinli, ehtiyatlı olmağa çağırıram", - deyə V.Kreydenko əlavə edib.

## İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistanın hücumunu pisləyən bəyanat yayıb

İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində hücumunu, atəşkəsi pozmasını, nəticədə azərbaycanlı əsgərlərin həlak olmasını və yaralanmasını kəskin şəkildə pisləyən bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin həlak olanların ailələrinə başsağlığı verib, yaralananların tezliklə sağalmasını diləyib.

İƏT-in Baş Katibliyi İslam Əməkdaşlıq Təşkilatının və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən, münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həllini dəstəkləyən qərar və qətnamələrini bir daha xatırladıb.

## TÜRKPA-nın Baş katibi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın sərhəd yaşayış məntəqələrini atəşə tutmasını şiddətlə qınayır

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Altınbek Mamayusupov mülki şəxslərin də ölümü ilə nəticələnən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının sərhəd yaşayış məntəqələrinin atəşə tutulmasını şiddətlə qınayır.

Baş katib qeyd edib ki, TÜRKPA-nın bəyannamələrində dəfələrlə təsbit edildiyi kimi, Parlament Assambleyasının üzv ölkələri Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qısa bir zamanda həllini qətiyyətli şəkildə dəstəkləyir.

Baş katib son hadisələr zamanı həyatını itirən Azərbaycan Silahlı Qüvvələri üzvlərinin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***AZƏRTAC***

## Türk Şurasının Baş katibi Ermənistanın təxribatını kəskin şəkildə pisləyib

Türk Şurasının Baş katibi Bağdad Amreyev Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə olunmaqla hücum edilməsini və bununla da regionda gərginliyin artmasını kəskin şəkildə pisləyib və bundan çox narahat olduğunu bildirib.

AZƏRTAC xəbər verir ki, Baş katib şəhidlərin ailələrinə, Azərbaycan xalqına və hökumətinə başsağlığı verib, yaralananların tezliklə sağalmalarını arzulayıb.

Bəyanatda deyilir ki, Türk Şurası beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini bir daha bildirir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll edilməsinin vacibliyini vurğulayır.

Baş katib tərəfləri döyüşlərin tezliklə dayandırılmasına, gərginliyin aradan qaldırılmasına və münaqişənin beynəlxalq hüququn ümumqəbul edilmiş norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələri əsasında sülh yolu ilə həlli üçün yollar axtarmaqda davam etməyə çağırır.

# Ermənilər sosial şəbəkələrdə qan ağlayırlar:

## "Aprel döyüşləri təkrarlansa, Azərbaycan Yerevana kimi gələcək"

*Əvvəli 1-ci səh.*

Ermənistan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Şuşan Stepyanın "Facebook" sosial şəbəkəsində yaydığı açıqlamaya rəy bildirən Maria adlı istifadəçi yazır: "Siz insanları aldadırsınız, mənim qohumum orada qulluq edir, artıq 30-a qədər itkimiz var".

Diana Arutyunyan adlı "Facebook" istifadəçisi isə vahimə dolu status paylaşıb: "Cəbhədə dəhşətli hadisələr baş verir. Qardaşım zəng edib dedi ki, Azərbaycan tərəfindən artilleriya atəşi açılır. Hospital və klinikalar yaralılarla doludur. Qardaşım ölü əsgərlərlə dolu 3 yük maşınının hərəkət etdiyini görüb. 70 əsgərin öldüyü, 300 yaralının olduğu bildirilir. Amma qardaşım ölülərin gördüyündən daha çox, hətta 200-dən çox ola biləcəyini də dedi. Nə edəcəyimizi bilmirik. Qardaşımla əlaqə itib. Şəhərdə təşviş var. Hökumət isə heç bir şey etmir".

### "Bizdə niyə geri dönən yalnız əsgərlərimizin cənazəsi olmalıdır"

"Odnoklassniki" sosial şəbəkəsində cəbhə xəttinin Tovuz rayonu istiqamətində baş verən hadisə ilə bağlı paylaşılan xəbərə Hayrepet Melkonyan adlı istifadəçinin rəyi daha çox bəyənmə toplayıb: "Aprel döyüşlərindən sonra növbəti qorxunu yaşayırıq. Yalanlardan cana doymuşuq. Niyə ölən əsgərlərimizin sayını düzgün demirsiniz? Müdafiə Nazirliyində işləyən bir tanışım deyir ki, çox itkilər vermişik. Nə vaxtacan belə davam edəcək ? Paşinyan niyə Sarkisyanın yolunu tutmusan? Görəsən, Paşinyan növbəti rəzilliyindən utanırmı?!"

Edqar Qasparyan adlı istifadəçinin "Twitter"də paylaşımı da 100-dən çox "retweet" edilib. O, məhv edilən erməni əsgərin şəkilini paylaşaraq yazıb: "Yalanlarla dolu Ermənistan. Dünən qonşumuz Henrix Baqdasaryanın 19 yaşlı nəvəsinin meyitini gətirdilər. Bizdə niyə geri dönən yalnız əsgərlərimizin cənazəsi olmalıdır. Hakimiyyətə gəlməsi üçün gecələr belə yatmadığımız, dəstək olduğumuz Paşinyan Ermənistanı məhvə aparır".

### "Heç olmasa biri Aprel döyüşlərinin nəticələrini baş nazirə xatırlatsın"

Edvard Şahnazaryan adlı "Facebook" istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamam tükənib: "Paşinyan, Ermənistan üçün nə etmisən? Gənclərin cəbhədə səbəbsiz ölümündə birbaşa sən təqsirkarsan. Buradan əsgər valideynlərindən xahiş edirəm: övladlarınızın boş yerə, populist, yalançı rejimin maraqları naminə qurban getməsinə mane olun, etiraz edin".

"Vkontakte" şəbəkə istifadəçisi Davit Nairyanın paylaşılan xəbərə rəyi də daha çox müzakirələrə səbəb olub: "Nikol öz xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləyir. Necə olur-olsun, kim ölür-ölsün, təki özü hakimiyyətdə qalsın. Heç olmasa biri Aprel döyüşlərinin nəticələrini baş nazirə xatırlatsın. Koronavirusdan da çox qorxulu bir vəziyyətlə qarşılaşmışıq. Bugünkü Ermənistan bədbəxtdir, təkdir".

### "Pandemiyadan qırılırıq, indi də gənc uşaqlarımız cəbhədə məhv olurlar"

Onu da əlavə edək ki, "psevdovətənpərvər" ermənilər də tapılır ki, sosial şəbəkələrdə paylaşılan etiraz dolu statuslara qarşı çıxaraq həqiqəti etiraf edənlərə ən sərt formada hücuma keçirlər, "vətən xaini" adlandırırlar. Amma bu mövqedə olanların profillərini diqqətlə araşdırdıqda ortaya maraqlı mənzərə çıxır və bəlli olur ki, bu şəxslərin, demək olar, hamısı "Mənim addımım" blokunun tərəfdarları, hansısa vəzifə tutan şəxslərdir. Elə bundan irəli gəlir ki, onlar şərhlərində yalnız Paşinyan iqtidarını müdafiə edən şərhlər paylaşırlar.

Məsələn, Xaçatur Markaryan "Facebook" sosial şəbəkəsində Paşinyanın şəklini paylaşaraq "Ermənistan sizinlə qürur duyur" şərhi verdikdən sonra çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib.

Vazgen Volodyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: "Yalançı baş nazirlə? Pandemiyadan qırılırıq, indi də gənc uşaqlarımız cəbhədə məhv olur. Bilirsən, Paşinyana o zaman afərin deyərəm ki, oğlunu da təmas xəttinə göndərsin. Vətənə biz yox, Paşinyan və onu burada müdafiə edənlər xəyanət edirlər. Gənc əsgərlərimiz məhv olur, susmalıyıq?"

Nikol Paşinyanın "Facebook"da paylaşımına Arman Araratyanın rəyi çoxlu bəyənmə toplayıb: "Baş nazir, işiniz-gücünüz sosial şəbəkələrdə paylaşımlar etməkdir. Bizə müharibə lazım deyil, uşaqlarımızı çöldən tapmamışıq. Sizə etiraz edən ictimaiyyəti susdurmaqdansa, gedib İlham Əliyevdən nümunə götürün. Müharibə başlasa, düşmən ölkə Stepanakerti (Xankəndi - red.) geri qaytaracaq. Aprel döyüşləri təkrarlansa, Azərbaycan Yerevana kimi gələcək".

### "Əsgər cənazələrini görməkdən bezmişik"

Aprel döyüşləri iştirakçısı Xoren Sarkisyan "Twitter"də çox maraqlı bir statusu ilə diqqət çəkib: "2016-cı ildəki döyüşlərdə sağ qalmağım möcüzə idi. Baş nazirimiz diplomatik sferada İlham Əliyevə uduzur, heç nə demirik. Lakin cəbhədəki döyüşlərdəki məğlubiyyət məni ciddi narahat edir. Niyə düzgün rəqəmləri açıqlamırsınız. Əsgər cənazələri görməkdən bezmişik".

"Odnoklassniki" sosial şəbəkəsində paylaşılan xəbərə Artur Vardanyanın şərhi də müzakirələrə səbəb olub: "Dostlar, gəlin gördüklərimizi açıq şəkildə etiraf etməkdən çəkinməyək. Rusiyanın Xarici İşlər naziri Lavrovun son bəyanatından sonra çox sevindim. Ona görə ki, Aprel döyüşləri hamımızda böyük qorxu yaradıb. Bəlkə, məni söyəcəksiniz, amma düzünü deməliyəm. Azərbaycan əsgəri qarşısında duruş gətirməyən əsgərlərimizin səngərlərdə silahlarını qoyub qaçmalarını görməkdən bezmişik. Bir neçə gün də davam etsə, çox böyük acılar yaşayacağıq (dua edən əllər işarəsi).

Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur...

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# VƏTƏN SƏNƏ OĞUL DEYİR

## Ağstafalı şəhid Elçin Mustafazadə torpağa tapşırılıb





İyulun 13-dən 14-nə keçən gecə mənfur erməni silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alarkən şəhid olan əsgər Mustafayev Elçin Arif oğlu dünən Ağstafa rayonu Həsənsu kəndində dəfn edilib. AZƏRTAC xəbər verir ki, dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an layiqli cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini bildiriblər.

Şəhidin anası Mahirə Mustafayeva oğlunun Vətən uğrunda şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu ifadə edib.

Dəfn mərasimindən sonra Azərbaycanın üçrəngli bayrağı şəhidin qardaşına təqdim olunub.

## Azərbaycan Ordusunun şəhid olan zabiti Anar Novruzov Masallıda dəfn edilib



İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun mayoru Anar Novruzov qəhrəmancasına şəhid olub.

AZƏRTAC xəbər verir ki, şəhidin nəşi doğulduğu Masallı rayonunun Ərkivan qəsəbəsinə gətirilib. Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, Milli Məclisin deputatları, kənd sakinləri, rayon ictimaiyyətinin nümayəndələri və şəhidin ailə üzvləri iştirak ediblər.

Ordumuzun şəhid olan mayoru Novruzov Anar Gülverdi oğlu Ərkivan qəsəbəsinin qəbiristanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, 44 yaşı olan Anar Novruzov ailəli idi, bir qız, bir oğlan övladı yadigar qaldı.

Şəhidin tabutuna bükülmüş Azərbaycan bayrağı övladına təhvil verilib.

## Şəhid mayor Namiq Əhmədov Qazaxda son mənzilə yola salınıb



İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən təxribatının qarşısını alan zaman qəhrəmancasına şəhid olan mayor Əhmədov Namiq Hajan oğlu dünən Qazax rayonunun Yuxarı Salahlı kəndində dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüş yoldaşları və qohumları iştirak ediblər.

Şəhidin nəşi doğulub boya-başa çatdığı Qazaxın Yuxarı Salahlı kəndində izdihamla qarşılanıb.

Qeyd edək ki, Namiq Əhmədovun bir qız, bir oğlan övladı var.

Dəfn mərasimindən sonra Azərbaycan bayrağı şəhidin atası Hajan Əhmədova təqdim edilib.

## Azərbaycan Müdafiə Nazirliyi: Tovuz rayonu istiqamətində şiddətli döyüşlər davam edib

İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüşlər davam edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı bölmələrimizin cavab tədbirləri nəticəsində böyük itkilər verən düşmən geri çəkilməyə məcbur edilib.

Döyüş zamanı müdafiənin ön xəttində olan general-mayor Həşimov Polad İsrayıl oğlu qəhrəmancasına şəhid olub. Düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun aşağıda adları çəkilən hərbi qulluqçuları da şəhid olublar:

- *polkovnik Mirzəyev İlqar Anzor oğlu;*
- *mayor Əhmədov Namiq Hajan oğlu;*
- *mayor Novruzov Anar Gülverdi oğlu;*
- *gizir Zeynallı İlqar Ayaz oğlu;*
- *gizir Babayev Yaşar Vasif oğlu;*
- *müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mustafazadə Elçin Arif oğlu.*

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçularımızın ailələrinə dərin hüznlə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

Döyüşlərdə yaralananlar da var. Onlara dərhal tibbi yardım göstərilib və həyatları üçün təhlükə yoxdur. Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və yüzlərlə canlı qüvvəsi məhv edilib.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

## Qafqaz Müsəlmanları İdarəsi Ermənistanın törətdiyi hərbi təxribatla bağlı bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatla bağlı bəyanat yayıb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bəyanatda deyilir: "Uzun illərdir ki, Dağlıq Qarabağ və ətraf rayonları əhatə edən 20 faiz ərazimizi işğal altında saxlayan bədnam Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədində, Tovuz rayonu istiqamətində son günlərdə təxribatlar törədilməsi, atəşkəs rejiminin pozulması, ərazilərimizin təcavüzə məruz qalması Azərbaycan xalqını, o cümlədən dini ictimaiyyətimizi dərindən narahat edir. Yer üzündə ən vacib ilahi dəyər olan sülhün zaman-zaman mənfur qonşu dövlət tərəfindən məkr və fitnə ilə pozulması yeni savaşlara və yeni tələfatlara meydan açıb. Böyük ürəkağrısı ilə qeyd edirik ki, düşmənin təxribatçı həmləsini dəf edərkən qəhrəman Azərbaycan övladları şəhid olub, igid hərbçilərimizin bir neçəsi yaralanıb, mülki əhali arasında tələfat baş verib. Bu təxribatın bütün siyasi və hüquqi məsuliyyəti Ermənistan tərəfinin üzərindədir, törətdiyi cinayət əməllərinə görə bu dövlətin siyasətbazları Allah və bəşər məhkəməsi qarşısında cavab verəcək.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə başda olmaqla Qazılar Şurası və bütün müsəlman din xadimlərimiz adından şəhidlərimizə Allah-Təaladan rəhmət, yaralılarımıza şəfa diləyir, şəhidlərimizin ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına səbir və dəyanət arzulayır, düşmən qarşısında mətanətli olmağa çağırırıq.

Ən böyük təsellimiz budur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bildirdiyi kimi, hərbçilərimizin qisası alınıb, müqəddəs dövlət sərhədimiz qorunub və düşmən əsgərləri geri çəkilib. Qüdrətli Azərbaycan Ordusunun azğın təcavüzkarı geri oturtması cəsur hərbçilərimizin işğalçını ciddi itkilərə məruz qoyaraq bu təxribatın qarşısını alması bizdə sonsuz inam və qürur hissi yaratdı. Biz işğalçı Ermənistanın bu çirkin təxribatını qətiyyətlə pisləyir, dünya ictimaiyyətini və beynəlxalq təşkilatları Azərbaycanın haqq işinə fəal dəstək verməyə, təcavüzkarın hüquqi cəzalandırılması üçün səy göstərməyə çağırırıq.

Qafqaz Müsəlmanları İdarəsi bu narahat günlərdə Ali Baş Komandanımız, dövlətimiz, xalqımız və Vətən torpaqlarını müdafiə edən ordumuzla həmrəy olduğunu bir daha bəyan edir, qəhrəman Azərbaycan Ordusuna həmişə yüksək qələbə əzmi, parlaq zəfərlər arzulayır. Allah-Təala haqq işimizə yardımçı olsun".

## Düşmənin Tovuzda qətlə yetirdiyi mülki şəxs torpağa tapşırılıb

İyulun 14-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində həlak olan Tovuz rayonunun Ağdam kənd sakini, 1944-cü il təvəllüdlü Əzizov Əziz İzzət oğlu dünən torpağa tapşırılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mülki əhalini ağır silahlardan atəşə tutmaq erməni faşizminin və barbarlığının əyani təzahürüdür.

Bundan əvvəlki dövrdə də ermənilər yaşayış məntəqələrimizi davamlı şəkildə ağır silahlardan atəşə tutublar. Bunun nəticəsində mülki vətəndaşlar həlak olub, əhalinin təsərrüfatına, mülklərinə, yaşayış məntəqələrinin infrastrukturuna ciddi ziyan vurulub.



## XİN: "Azərbaycanlı mülki şəxsin öldürülməsi qanlı cinayətdir"

İyulun 14-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində mülki şəxs, Tovuz rayonunun Ağdam kəndinin sakini, 1944 cü il təvəllüdlü Əzizov Əziz İzzət oğlu həlak olub. Ermənistan tərəfindən Azərbaycanlı mülki əhalini məqsədyönlü şəkildə hədəfə almaq və ağır silahlardan atəşə tutmaq faşizmin və barbarlığın əyani təzahürüdür. Bu, Ermənistanın təcavüzkar siyasətinin tərkib hissəsidir. Azərbaycanlı mülki şəxsin öldürülməsi qanlı cinayətdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Ermənistan tərəfi bundan öncə də azərbaycanlı mülki şəxsləri məqsədyönlü şəkildə hədəfə alaraq, onlara qarşı insanlıq əleyhinə cinayət aktları törədib. 1992-ci ilin 26 fevral tarixində Xocalıda 613 dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, sərhədboyu, eləcə də təmas xətti yaxınlığında yaşayan və aralarında azyaşlı uşaqlar da olmaqla azərbaycanlı mülki şəxslərin məqsədyönlü şəkildə düşmən gülləsinin hədəfinə çevrilməsi, eləcə də 2016-cı ilin aprel hadisələri zamanı 6 mülki şəxsin həlak olması və 33 nəfərin yaralanması Ermənistan təcavüzünün nəticəsidir.

Ermənistan silahlı qüvvələri, yaşayış məntəqələrimizi davamlı şəkildə ağır silahlardan atəşə tutmaqla yanaşı, əhalinin təsərrüfatına, mülklərinə, yaşayış məkanının infrastrukturuna ciddi ziyan vurur. Bu kimi əməlləri ilə Ermənistan beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını və bu xüsusda üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozur.

Ermənistanın hərbi bölmələrinin dinc azərbaycanlı əhalini hədəfə götürməsinə və Azərbaycanlı mülki şəxslərin Ermənistanın məqsədyönlü qanlı təxribatının qurbanı olması faktına beynəlxalq ictimaiyyəti sərt reaksiya verməyə və Ermənistanın bu qanunsuz əməllərini qınamağa çağırırıq.

Azərbaycanlı mülki şəxsin qətl edilməsinin məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

## *Vaqif DƏRGAHLI:* "Düşmənə məxsus PUA vurulub və artilleriya qurğusu döyüş heyəti ilə birlikdə məhv edilib"



"Bu dəqiqələrdə Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) vurulub və düşmənin atəş mövqeyində yerləşən artilleriya qurğusu döyüş heyəti ilə birlikdə bölmələrimizin sərrast atəşi ilə məhv edilib. AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib".

"Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycan Ordusunun bölmələrinə məxsus növbəti PUA-nın guya vurulması barədə yayılan məlumata gəldikdə isə bildiririk ki, bu, dezinformasiyadır, həqiqəti əks etdirmir və Ermənistan Müdafiə Nazirliyi rəsmisinin uydurmasıdır. Azərbaycan Ordusunun bölmələrinə məxsus PUA-lar tam tərkibdə sıradadır və heç bir itki yoxdur", - deyə polkovnik V.Dərgahlı qeyd edib.

## Düşmənin mövqeləri və müdafiəsinin dərinliyindəki ehtiyatlar məhv edilib

İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər davam edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edilib.



## Ermənistan silahlı qüvvələrinin artilleriya divizionunun idarəetmə məntəqəsi dağıdılıb



Düşmənin aktiv döyüş fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin artilleriya divizionunun idarəetmə məntəqəsi Azərbaycan Ordusunun bölmələrinin dəqiq atəşi ilə məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## *Müdafiə Nazirliyi:* "Düşmənin uzunmüddətli atəş nöqtəsi vurulub"

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində milli ordumuzun bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi atəşə məruz qoyan Ermənistan silahlı qüvvələri bölmələrinin uzunmüddətli atəş nöqtəsi ordumuz tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.



## Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Tovuz rayonunun Ağdam kəndində olub

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva iyulun 14-də Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində həlak olan mülki şəxs, Ağdam kənd sakini, 1944-cü il təvəllüdlü Əzizov Əziz İzzət oğlunun evində olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, müvəkkil hadisə yerinə baş çəkib və mövcud şəraitlə tanış olub.

Jurnalistlərə açıqlamasında Səbinə Əliyeva deyib: "Məlum olduğu kimi, bir neçə gün əvvəl Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti təxribat törədilib. İnsan Hüquqları üzrə Müvəkkil olaraq buraya mülki əhaliyə qarşı törədilmiş təcavüzlə bağlı monitorinq aparmağa gəlmişəm.

Bunlarla bağlı geniş hesabat hazırlayaraq ən qısa zamanda müvafiq beynəlxalq qurumlara göndərəcəyik. Ermənistan hüquqların müdafiəsi sahəsində mövcud olan bütün beynəlxalq sənədləri bu dəfə də pozub. Burada yaşayan əlil və ahıl insan qətlə yetirilib. Budur, əlil və ahıl dinc sakinin axşam yeməyinə hazırlaşdığı zaman başına gələn faciə. O, yemək masasının üstündə qalıb".

## "Azərişıq" ASC cəbhə xəttində yaşanan son hadisələrlə əlaqədar Xüsusi Qərargah yaradıb

Cəbhə xəttində yaşanan son hadisələrlə əlaqədar olaraq "Azərişıq" ASC-də Xüsusi Qərargah yaradılıb.

"Azərişıq" ASC rəhbərinin sərəncamı ilə xüsusi işçi qrupu yaradılıb və təmas xətti boyunca yerləşən yaşayış məntəqələrində növbətçilik əsasında əməkdaşlar gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir.




"Azərişıq" ASC Mətbuat xidmətindən bildirilib ki, bütün cəbhəboyu rayonlarda xüsusi əhəmiyyətli binalar əlavə olaraq generatorlarla təmin edilib. Təmas xəttində yerləşən rayonlara ehtiyat transformatorlar, naqillər, dayaqlar, ehtiyat hissələri və böyük həcmdə əlavə mal-material göndərilib. Məqsəd ən çətin məqamlarda belə vətəndaşlarmızı fasiləsiz və dayanıqlı şəkildə elektrik enerjisi ilə təmin etməkdir. Sərhəd rayonlarına ezam olunan "Azərişıq" ASC-nin rəhbər heyəti vəziyyətə yerindəcə nəzarət edir və mütəmadi olaraq əməkdaşları təlimatlandırır.

Tovuzun Ağdam kəndinə erməni silahlı qüvvələri tərəfindən atılan mərmilər bəzi yerlərdə elektrik enerjisi xətlərinin zədələnməsinə səbəb olub. Və ərazidə olan "Azərişıq" ASC əməkdaşları operativ şəkildə elektrik xətlərini təmir edib. Hazırda kəndin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur.

"Azərişıq" ASC əməkdaşları ön cəbhədə düşmənə sarsıdıcı zərbələr endirən qəhrəman əsgərlərmizlə çiyin-çiyinə dayanmaqdan qürur duyur!

# Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası gəlirlər 24 218 061,7 min manat, xərclər 24 425 914,0 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **1.** | **Gəlirlər** | **24 218 061 691** |
| 1.1. | Fiziki şəxslərin gəlir vergisi | 952 121 218 |
| 1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 545 987 926 |
| 1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 50 026 792 |
| 1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 212 613 736 |
| 1.5. | Əlavə dəyər vergisi | 5 185 064 027 |
| 1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 3 004 081 998 |
| 1.6. | Sadələşdirilmiş vergi | 358 576 105 |
| 1.7. | Aksizlər | 854 736 821 |
| 1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 249 632 599 |
| 1.8. | Yol vergisi | 118 905 380 |
| 1.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 45 431 630 |
| 1.9. | Mədən vergisi | 133 787 015 |
| 1.10. | Gömrük rüsumları | 1 109 478 581 |
| 1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 232 611 795 |
| 1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 52 324 285 |
| 1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 869 000 |
| 1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfert) | 11 364 300 000 |
| 1.15. | Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar | 11 440 288 |
| 1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 8 433 804 |
| 1.17. | Dövlət rüsumu | 191 297 431 |
| 1.18. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 578 879 795 |
| 1.19. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 127 270 186 |
| 1.20. | Sair daxilolmalar | 129 337 506 |
| **2.** | **Xərclər** | **24 425 913 957** |
| 2.1. | Ümumi dövlət xidmətləri | 2 985 647 754 |
| 2.1.1. | qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 774 460 965 |
| 2.1.2. | beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlükhaqqı xərcləri | 169 718 795 |
| 2.1.3. | elm xərcləri | 122 289 584 |
| 2.1.4. | başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri | 88 355 950 |
| 2.1.5. | dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər | 1 524 774 509 |
| 2.1.6. | yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya | 4 687 951 |
| 2.1.7. | yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya | 1 000 000 |
| 2.1.8. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 300 360 000 |
| 2.2. | Müdafiə | 3 162 481 029 |
| 2.2.1. | müdafiə qüvvələri | 1 467 130 104 |
| 2.2.2. | milli təhlükəsizlik | 159 934 807 |
| 2.2.3. | müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 2 779 243 |
| 2.2.4. | digər kateqoriyalara aid edilməyən xərclər | 1 532 636 875 |
| 2.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1 505 054 399 |
| 2.3.1. | məhkəmə hakimiyyəti | 63 806 121 |
| 2.3.2. | hüquq-mühafizə | 1 151 217 501 |
| 2.3.3. | Prokurorluq | 63 921 809 |
| 2.3.4. | digər kateqoriyalara aid edilməyən xidmətlər | 226 108 968 |
| 2.4. | Təhsil | 2 195 706 063 |
| 2.4.1. | məktəbəqədər təhsil | 214 943 567 |
| 2.4.2. | ümumi təhsil | 1 264 259 282 |
| 2.4.3. | peşə təhsili | 32 270 122 |
| 2.4.4. | orta ixtisas təhsili | 42 268 408 |
| 2.4.5. | ali təhsil | 231 556 711 |
| 2.4.6. | əlavə təhsil | 1 713 969 |
| 2.4.7. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 408 694 004 |
| 2.5. | Səhiyyə | 873 633 385 |
| 2.5.1. | poliklinikalar və ambulatoriyalar | 115 230 200 |
| 2.5.2. | xəstəxanalar | 363 928 740 |
| 2.5.3. | səhiyyə sahəsində digər xidmətlər | 6 623 774 |
| 2.5.4. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 7 872 820 |
| 2.5.5. | səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 379 977 851 |
| 2.6. | Sosial müdafiə və sosial təminat | 2 281 031 227 |
| 2.6.1. | sosial müdafiə xərcləri | 2 243 074 522 |
| 2.6.1.1. | sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 182 732 410 |
| 2.6.2. | sosial təminat xərcləri | 37 932 950 |
| 2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 23 755 |
| 2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 335 770 044 |
| 2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 139 795 053 |
| 2.7.2. | radio, televiziya və nəşriyyat | 60 609 224 |
| 2.7.3. | bədən tərbiyəsi, gənclər siyasəti və turizm | 66 613 776 |
| 2.7.4. | digər kateqoriyalara aid edilməyən fəaliyyət | 68 751 991 |
| 2.8. | Mənzil və kommunal təsərrüfatı | 334 392 734 |
| 2.8.1. | mənzil təsərrüfatı | 49 351 598 |
| 2.8.2. | kommunal təsərrüfatı | 258 282 950 |
| 2.8.3. | su təsərrüfatı | 4 559 470 |
| 2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 22 198 716 |
| 2.9. | Yanacaq və enerji | 7 794 557 |
| 2.9.1. | enerji kompleksi | 6 294 557 |
| 2.9.2. | yanacaq və enerji kompleksi sahəsi üzrə təcrübə və tətbiqi tədqiqatlar | 1 500 000 |
| 2.10. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 857 628 233 |
| 2.10.1. | kənd təsərrüfatı | 823 732 629 |
| 2.10.2. | meşə təsərrüfatı | 10 793 004 |
| 2.10.3. | balıqçılıq və ovçuluq | 1 757 722 |
| 2.10.4. | ətraf mühitin mühafizəsi | 14 042 459 |
| 2.10.5. | hidrometeorologiya tədbirləri | 7 302 419 |
| 2.11. | Sənaye, tikinti və faydalı qazıntılar | 6 213 995 420 |
| 2.11.1. | Tikinti | 6 200 833 066 |
| 2.11.1.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 6 199 424 630 |
| 2.11.2. | faydalı qazıntılar | 10 546 174 |
| 2.11.3. | geodeziya və xəritəçəkmə | 2 616 180 |
| 2.12. | Nəqliyyat və rabitə | 175 058 870 |
| 2.12.1. | nəqliyyat | 124 572 265 |
| 2.12.2. | rabitə | 50 486 605 |
| 2.13. | İqtisadi fəaliyyət | 372 606 588 |
| 2.13.1. | iqtisadi və kommersiya fəaliyyəti | 190 386 210 |
| 2.13.1.1. | sahibkarlığa dəstək | 48 386 210 |
| 2.13.1.2. | Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri | 142 000 000 |
| 2.13.2. | iqtisadi fəaliyyətin digər sahələri | 182 220 378 |
| 2.14. | Əsas bölmələrə aid edilməyən xidmətlər | 3 124 479 317 |
| 2.14.1. | məqsədli büdcə fondları | 322 000 000 |
| 2.14.1.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 302 000 000 |
| 2.14.2. | ehtiyat fondları | 1 376 871 444 |
| 2.14.2.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 296 713 458 |
| 2.14.2.2. | Dövlət büdcəsinin ehtiyat fondu | 1 080 157 986 |
| 2.14.3. | əsas bölmələrə aid edilməyən sair xərclər | 1 425 607 873 |
| 2.14.3.1. | beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 71 409 730 |
| 2.14.3.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000 |
| 2.14.3.3. | sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 1 334 198 143 |
| 2.15. | 2019-cu ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 634 337 |
| **3.** | **Büdcə kəsiri** | **207 852 266** |
| **4.** | **2020-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı** | **2 342 195 300** |

**Maddə 3.** Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

# "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 19 iyun tarixli 131-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki cədvəlin 2-ci hissəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləği aşağıdakı qaydada təsdiq edilsin:

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1.1. | Ümumi dövlət xidmətləri | 2 985 647 754 |
| 1.1.1. | Qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 774 460 965 |
| 1.1.1.1. | Azərbaycan Respublikasının Milli Məclisi | 27 656 042 |
| 1.1.1.2. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 97 017 706 |
| 1.1.1.3. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 8 611 615 |
| 1.1.1.4. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8 537 895 |
| 1.1.1.5. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 933 212 |
| 1.1.1.6. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 3 043 024 |
| 1.1.1.7. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 391 252 |
| 1.1.1.8. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 7 003 782 |
| 1.1.1.9. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 10 979 095 |
| 1.1.1.10. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 7 865 779 |
| 1.1.1.11. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti | 1 969 520 |
| 1.1.1.12. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 13 920 613 |
| 1.1.1.13. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 704 861 |
| 1.1.1.14. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti | 246 533 |
| 1.1.1.15. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti | 131 108 |
| 1.1.1.16. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti | 133 156 |
| 1.1.1.17. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 983 623 |
| 1.1.1.18. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 19 119 936 |
| 1.1.1.19. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi | 287 341 |
| 1.1.1.20. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi | 3 103 496 |
| 1.1.1.21. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 1 534 811 |
| 1.1.1.22. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti | 279 383 |
| 1.1.1.23. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 5 691 168 |
| 1.1.1.24. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 631 921 |
| 1.1.1.25. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 3 359 103 |
| 1.1.1.26. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti | 2 098 673 |
| 1.1.1.27. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 277 708 |
| 1.1.1.28. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu | 85 719 |
| 1.1.1.29. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 040 246 |
| 1.1.1.30. | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 3 152 652 |
| 1.1.1.31. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 9 275 573 |
| 1.1.1.32. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 23 699 632 |
| 1.1.1.33. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 523 988 |
| 1.1.1.34. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 1 795 763 |
| 1.1.1.35. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 2 619 943 |
| 1.1.1.36. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2 523 618 |
| 1.1.1.37. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 16 646 708 |
| 1.1.1.38. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 8 815 675 |
| 1.1.1.39. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti | 1 202 964 |
| 1.1.1.40. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti | 830 278 |
| 1.1.1.41. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi | 745 994 |
| 1.1.1.42. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 2 556 438 |
| 1.1.1.43. | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 895 320 |
| 1.1.1.44. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi | 2 192 442 |
| 1.1.1.45. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 762 761 |
| 1.1.1.46. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 551 424 |
| 1.1.1.47. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 3 216 559 |
| 1.1.1.48. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 26 018 093 |
| 1.1.1.49. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi | 89 916 |
| 1.1.1.50. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 578 119 |
| 1.1.1.51. | Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının Katibliyi | 68 170 |
| 1.1.1.52. | Tarif (qiymət) Şurasının Katibliyi | 164 222 |
| 1.1.1.53. | Dövlət mükafatlarının və təltiflərin maliyyə təminatı | 50 000 |
| 1.1.1.54. | Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 110 688 |
| 1.1.1.55. | Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 108 583 |
| 1.1.1.56. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 94 827 664 |
| 1.1.1.57. | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 10 608 444 |
| 1.1.1.57.1. | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) | 2 266 485 |
| 1.1.1.57.2. | Azərbaycan Respublikasının Hesablama Palatası | 4 186 951 |
| 1.1.1.57.3. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 2 590 611 |
| 1.1.1.57.4. | Məhkəmə-Hüquq Şurası | 656 416 |
| 1.1.1.57.5. | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | 907 981 |
| 1.1.1.58. | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 5 998 436 |

***Ardı 8-ci səh.***

# “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 7-ci səh.*

| | | |
|---|---|---|
| 1.1.1.59. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 367 884 |
| 1.1.1.60. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti | 504 690 |
| 1.1.1.61. | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 12 075 244 |
| 1.1.1.62. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 500 000 |
| 1.1.1.63. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 305 744 759 |
| 1.1.2. | Beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri | 169 718 795 |
| 1.1.2.1. | Beynəlxalq maliyyə-kredit təşkilatlarına və ictimai-siyasi təşkilatlara üzvlük haqqı | 36 110 139 |
| 1.1.2.2. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 104 834 723 |
| 1.1.2.3. | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 26 034 120 |
| 1.1.2.4. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri) | 2 739 813 |
| 1.1.3. | Elm xərcləri | 122 289 584 |
| 1.1.3.1. | Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması | 88 617 415 |
| 1.1.3.2. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 406 396 |
| 1.1.3.3. | “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi | 1 954 269 |
| 1.1.3.4. | Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi | 255 340 |
| 1.1.3.5. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 4 374 289 |
| 1.1.3.6. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 413 976 |
| 1.1.3.7. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1 011 338 |
| 1.1.3.8. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 685 177 |
| 1.1.3.9. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 12 361 404 |
| 1.1.3.10. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 523 960 |
| 1.1.3.11. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 4 729 620 |
| 1.1.3.12. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 170 544 |
| 1.1.3.13. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 4 198 298 |
| 1.1.3.14. | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | 279 092 |
| 1.1.3.15. | Elm sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 399 390 |
| 1.1.3.16. | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 1 909 076 |
| 1.1.4. | Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri | 88 355 950 |
| 1.1.4.1. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 21 077 028 |
| 1.1.4.2. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 51 377 470 |
| 1.1.4.2.1. | Seçici siyahılarının dəqiqləşdirilməsi | 3 494 098 |
| 1.1.4.2.2. | Dairə seçki komissiyalarının saxlanılması | 8 188 612 |
| 1.1.4.2.3. | Azərbaycan Respublikasının bələdiyyə orqanlarına seçkilərin keçirilməsi | 39 694 760 |
| 1.1.4.3. | Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti sahəsində qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 1 487 491 |
| 1.1.4.4. | Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti sahəsində maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 2 006 400 |
| 1.1.4.5. | Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti sahəsində islahatların aparılması | 12 407 561 |
| 1.1.5. | Dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər | 1 524 774 509 |
| 1.1.6. | Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiyalar | 4 687 951 |
| 1.1.7. | Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiyalar | 1 000 000 |
| 1.1.8. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 300 360 000 |
| 1.2. | Müdafiə | 3 162 481 029 |
| 1.2.1. | Müdafiə qüvvələri | 1 467 130 104 |
| 1.2.1.1. | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 1 206 842 228 |
| 1.2.1.2. | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 192 775 794 |
| 1.2.1.3. | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 22 683 991 |
| 1.2.1.4. | Müdafiə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 12 648 104 |
| 1.2.1.5. | Müdafiə qüvvələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 4 600 000 |
| 1.2.1.6. | Müdafiə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 5 479 988 |
| 1.2.1.7. | Müdafiə sahəsində islahatların aparılması | 22 099 999 |
| 1.2.2. | Milli təhlükəsizlik | 159 934 807 |
| 1.2.2.1. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti | 119 393 714 |
| 1.2.2.2. | Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti | 34 916 832 |
| 1.2.2.3. | Milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 224 477 |
| 1.2.2.4. | Milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 5 399 784 |
| 1.2.3. | Müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 2 779 243 |
| 1.2.3.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 2 779 243 |
| 1.2.4. | Digər kateqoriyalara aid edilməyən xərclər | 1 532 636 875 |
| 1.2.4.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 3 305 316 |
| 1.2.4.2. | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 1 529 331 559 |
| 1.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1 505 054 399 |
| 1.3.1. | Məhkəmə hakimiyyəti | 63 806 121 |
| 1.3.1.1. | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | 4 453 679 |
| 1.3.1.2. | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 9 902 021 |
| 1.3.1.3. | Bakı Apellyasiya Məhkəməsi | 5 464 428 |
| 1.3.1.4. | Sumqayıt Apellyasiya Məhkəməsi | 2 118 671 |
| 1.3.1.5. | Gəncə Apellyasiya Məhkəməsi | 1 647 701 |
| 1.3.1.6. | Şirvan Apellyasiya Məhkəməsi | 1 706 872 |
| 1.3.1.7. | Şəki Apellyasiya Məhkəməsi | 1 267 228 |

| | | |
|---|---|---|
| 1.3.1.7. | Şəki Apellyasiya Məhkəməsi | 1 267 228 |
| 1.3.1.8. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr) | 37 245 521 |
| 1.3.2. | Hüquq-mühafizə | 1 151 217 501 |
| 1.3.2.1. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 505 675 210 |
| 1.3.2.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 156 432 965 |
| 1.3.2.3. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 31 513 330 |
| 1.3.2.4. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 105 724 801 |
| 1.3.2.4.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 67 670 216 |
| 1.3.2.4.2. | Penitensiar fəaliyyəti | 38 054 585 |
| 1.3.2.5. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 181 304 792 |
| 1.3.2.6. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 19 757 275 |
| 1.3.2.7. | Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti | 98 206 611 |
| 1.3.2.8. | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 14 520 824 |
| 1.3.2.8.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 14 029 186 |
| 1.3.2.8.2. | Miqrasiya fəaliyyəti | 491 638 |
| 1.3.2.9. | Hüquq-mühafizə orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 1 829 099 |
| 1.3.2.10. | Hüquq-mühafizə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 13 758 916 |
| 1.3.2.11. | Hüquq-mühafizə sahəsində islahatların aparılması | 22 493 678 |
| 1.3.3. | Prokurorluq | 63 921 809 |
| 1.3.3.1. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 53 025 752 |
| 1.3.3.2. | Azərbaycan Respublikasının Hərbi Prokurorluğu | 10 896 057 |
| 1.3.4. | Digər kateqoriyalara aid edilməyən xidmətlər | 226 108 968 |
| 1.3.4.1. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın işçi qrupu | 56 352 |
| 1.3.4.2. | Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu | 107 504 |
| 1.3.4.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 225 945 112 |
| 1.4. | Təhsil | 2 195 706 063 |
| 1.4.1. | Məktəbəqədər təhsil | 214 943 567 |
| 1.4.1.1. | Yerli icra hakimiyyəti orqanları | 213 043 806 |
| 1.4.1.2. | Məktəbəqədər təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 1 899 761 |
| 1.4.2. | Ümumi təhsil | 1 264 259 282 |
| 1.4.2.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1 262 932 358 |
| 1.4.2.2. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 1 002 142 |
| 1.4.2.3. | Bakı Dövlət Universiteti | 324 782 |
| 1.4.3. | İlk peşə-ixtisas təhsili | 32 270 122 |
| 1.4.3.1. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 2 936 584 |
| 1.4.3.2. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 28 534 379 |
| 1.4.3.3. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 766 249 |
| 1.4.3.4. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 32 910 |
| 1.4.4. | Orta ixtisas təhsili | 42 268 408 |
| 1.4.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 6 831 130 |
| 1.4.4.2. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 2 391 864 |
| 1.4.4.3. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 31 261 911 |
| 1.4.4.4. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 293 278 |
| 1.4.4.5. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 957 450 |
| 1.4.4.6. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 532 775 |
| 1.4.5. | Ali təhsil | 231 556 711 |
| 1.4.5.1. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 2 323 108 |
| 1.4.5.2. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 1 561 885 |
| 1.4.5.3. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 926 574 |
| 1.4.5.4. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 300 822 |
| 1.4.5.5. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 2 521 599 |
| 1.4.5.6. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 226 121 |
| 1.4.5.7. | “ADA” Universiteti | 17 556 000 |
| 1.4.5.8. | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 11 496 413 |
| 1.4.5.9. | I.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı | 5 074 481 |
| 1.4.5.10. | Azərbaycan İlahiyyat İnstitutu | 1 743 191 |
| 1.4.5.11. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 182 261 517 |
| 1.4.5.12. | Ali təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 65 000 |
| 1.4.5.13. | Ali təhsil sahəsində islahatların aparılması | 4 500 000 |
| 1.4.6. | Əlavə təhsil | 1 713 969 |
| 1.4.6.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 876 974 |
| 1.4.6.2. | Bakı Dövlət Universiteti | 393 937 |
| 1.4.6.3. | Azərbaycan Tibb Universiteti | 443 058 |
| 1.4.7. | Təhsil sahəsində digər müəssisə və tədbirlər | 408 694 004 |
| 1.4.7.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 270 942 633 |
| 1.4.7.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 12 095 988 |
| 1.4.7.3. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 47 092 |
| 1.4.7.4. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 5 385 340 |
| 1.4.7.5. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 407 694 |
| 1.4.7.6. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 77 770 042 |
| 1.4.7.7. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 306 460 |
| 1.4.7.8. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 988 694 |
| 1.4.7.9. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 1 422 061 |
| 1.4.7.10. | Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs | 8 025 600 |
| 1.4.7.11. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 241 931 |
| 1.4.7.12. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 4 099 450 |
| 1.4.7.13. | Yerli İcra hakimiyyəti orqanları | 4 375 765 |
| 1.4.7.14. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 1 653 400 |

| | | |
|---|---|---|
| 1.4.7.15. | Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 3 025 854 |
| 1.4.7.16. | Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 17 906 000 |
| 1.5. | Səhiyyə | 873 633 385 |
| 1.5.1. | Poliklinikalar və ambulatoriyalar | 115 230 200 |
| 1.5.1.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 115 230 200 |
| 1.5.2. | Xəstəxanalar | 363 928 740 |
| 1.5.2.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 293 122 833 |
| 1.5.2.2. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 6 324 400 |
| 1.5.2.3. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 906 018 |
| 1.5.2.4. | Azərbaycan Tibb Universiteti | 797 460 |
| 1.5.2.5. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 5 248 948 |
| 1.5.2.6. | “Talassemiya Mərkəzi” publik hüquqi şəxs | 12 301 676 |
| 1.5.2.7. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 40 871 515 |
| 1.5.2.8. | “Bakı Sağlamlıq Mərkəzi” publik hüquqi şəxs | 4 355 890 |
| 1.5.3. | Səhiyyə sahəsində digər xidmətlər | 6 623 774 |
| 1.5.3.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 144 621 |
| 1.5.3.2. | Səhiyyə sahəsində digər xidmətlər üzrə islahatların aparılması | 4 479 153 |
| 1.5.4. | Səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 7 872 820 |
| 1.5.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 3 531 772 |
| 1.5.4.2. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 612 336 |
| 1.5.4.3. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 865 704 |
| 1.5.4.4. | Səhiyyə sahəsində tətbiqi tədqiqatlar sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 2 863 008 |
| 1.5.5. | Səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 379 977 851 |
| 1.5.5.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 235 638 910 |
| 1.5.5.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 12 882 782 |
| 1.5.5.3. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 3 086 021 |
| 1.5.5.4. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 1 242 947 |
| 1.5.5.5. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 9 308 628 |
| 1.5.5.6. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 7 737 036 |
| 1.5.5.7. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 2 754 070 |
| 1.5.5.8. | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxs | 89 576 198 |
| 1.5.5.9. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 3 004 003 |
| 1.5.5.10. | Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 9 400 000 |
| 1.5.5.11. | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 5 347 256 |
| 1.6. | Sosial müdafiə və sosial təminat | 2 281 031 227 |
| 1.6.1. | Sosial müdafiə xərcləri | 2 243 074 522 |
| 1.6.1.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 660 798 082 |
| 1.6.1.2. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 260 723 044 |
| 1.6.1.3. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 891 060 |
| 1.6.1.4. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi | 1 182 732 410 |
| 1.6.1.5. | Sosial müdafiə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 98 115 707 |
| 1.6.1.6. | Sosial müdafiə sahəsi üzrə islahatların aparılması | 38 814 219 |
| 1.6.2. | Sosial təminat xərcləri | 37 932 950 |
| 1.6.2.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 17 701 360 |
| 1.6.2.2. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 19 441 450 |
| 1.6.2.3. | Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı | 290 140 |
| 1.6.2.4. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (paralimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 500 000 |
| 1.6.2.4.1. | Əqli qüsurlu idmançılar üzrə | 250 000 |
| 1.6.2.4.2. | Fiziki qüsurlu idmançılar üzrə | 250 000 |
| 1.6.3. | Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 23 755 |
| 1.6.3.1. | Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 23 755 |
| 1.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 335 770 044 |
| 1.7.1. | Mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 139 795 053 |
| 1.7.1.1. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 119 324 430 |
